‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ



30 DEKABR BAZAR ERTƏSİ 2024 № 50 (4201) Qiyməti - 40 qəpik www.kaspi.az



## ONLARA MİLLİ QƏHRƏMAN ADI VERİLDİ

Bakı-Qroznı reysini yerinə yetirən sərnişin təyyarəsinin həlak olan ekipaj üzvləri - gəmi komandiri İqor Kşnyakin, pilot Aleksandr Kalyaninov və stüardessa Hökumə Əliyeva ilə vida mərasimi keçirilib.

SƏHİFƏ 2-də



## TƏYYARƏ QORXUSU İLƏ NECƏ MÜBARİZƏ APARMALI?

Təyyarə qorxusu yaş və cinsindən asılı olmayaraq, hər bir insanda rast gəlinə bilər. Əgər fobiyanız varsa, uçuşa fokuslanmaq əvəzinə, onu yemək servisi, film izləmək və maraqlı kitab oxumaq kimi kiçik hissələrə bölün.

SƏHİFƏ 11-də



## BAYRAMQABAĞI BAHALAŞMAYACAQ, AMMA...

Yeni ilə son günlər qalmış ölkəyə idxal edilən düyü 14 faiz bahalaşıb. Lakin hazırda marketlərdə qiymətlərdə heç bir dəyişiklik müşahidə edilmir. Ekspertlər bahalaşmanı Novruz Bayramı ərəfəsində proqnozlaşdırırlar.

SƏHİFƏ 12-də



## ÖZÜ HAQQINDA MİF YARADAN ŞAİR

Yaddaşlarda sevgi şairi kimi qalan Nüsrət Kəsəmənli çətin uşaqlıq yaşamış, yaxşı dostlar qazanmış bir insan idi. Doğum günü ərəfəsində dostları mərhum şairi indi də işıqlı xatirələri ilə yada salırlar.

SƏHİFƏ 15-də

### “HƏM AĞILSIZLIQDIR, HƏM DƏ VİCDANSIZLIQDIR”

# HAMIMIZI KƏDƏRLƏNDİRƏN DƏHŞƏTLİ QƏZA



**Prezident İlham Əliyev: “Bizi təəssüfləndirən və təəccübləndirən məqamlardan biri də o idi ki, Rusiyanın rəsmi qurumları hansısa qaz balonunun partlaması ilə bağlı versiyalar irəli sürmüşdü. Yəni, bu, açıq-aydın göstərirdi ki, Rusiya tərəfi məsələni ört-basdır etmək istəyir”.**

### 38-İ HƏLAK OLDU, 29-U SAĞ QALDI

“Azərbaycan Hava Yolları”na (AZAL) məxsus Bakı-Qroznı aviareysini həyata keçirən sərnişin təyyarəsi dekabrın 25-də Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğrayıb. Təyyarənin göyərtəsindəki 67 nəfərdən 42-si Azərbaycan, 16-sı Rusiya, 6-sı Qazaxıstan, 3-ü isə Qırğızıstan vətəndaşı olub. Onlardan 38-i həlak olub, 29-u sağ qalıb.

### PUTİN İLHAM ƏLİYEVDƏN ÜZR İSTƏDİ

Rusiya Prezidenti Vladimir Putin dekabrın 28-də azərbaycanlı həmkarı İlham Əliyevə zəng edib. Telefon danışığı əsnasında Putin “Azərbaycan Hava Yolları”na məxsus sərnişin təyyarəsinin Rusiyanın hava məkanında fiziki-texniki xarakterli kənar müdaxiləyə məruz qalması və nəticədə baş vermiş faciəvi hadisə ilə bağlı üzrxahlığını ifadə edib.

SƏHİFƏ 3 və 4-də



### “Təyyarə nə üçün Qroznı şəhərinə enə bilmədi?”

Prezident İlham Əliyevin sözlərinə görə, “qara qutu”lar açılandan sonra hadisənin tam təfərrüatı üzə çıxacaq və bu gün hələ ki, sual kimi qalan bir çox məsələlərə aydınlıq gətiriləcək. Məsələn, təyyarə nə üçün Qroznı şəhərinə enə bilmədi?

BAŞ REDAKTORDAN

### Qəhrəmanlıq daha necə olur ki?



Biz artıq ekstremal vəziyyətlərdə bir yumruq kimi birləşə bilirik. Belə anlarda peşəkarlarımız önə çıxır. Hiss edirik ki, sinəsini önə verib bizi müdafiə edən dövlətimiz var.

İlham Quliyev SƏHİFƏ 9-da




## HÜCUM QURBANI OLMUŞ SƏRNİŞİN TƏYYARƏLƏRİ



Mülki aviasiyanın əsası qoyulan gündən təqribən 20-dən çox sərnişin təyyarəsi raket, yaxud hərbi təyyarələrin hücumuna məruz qalıb.

SƏHİFƏ 8-9-da



## İLKLƏR VƏ UĞURLARLA YADDA QALAN İL

Başa çatmaqda olan 2024-cü il ölkəmizin tarixinə önəmli hadisələrlə yazıldı. Bu ildə yaşadıqlarımız, əldə olunan nəticələr 2025-ci ildə daha möhtəşəm uğurlara imza atacağımıza dəlalət edir.

SƏHİFƏ 5-də



## İQTİSADİYYATIMIZA YENİ NƏFƏS GƏLƏCƏK

Ekspertlərin 2025-ci il üçün iqtisadi inkişaf proqnozları nikbindir. Gələn il yaşıl enerjiyə keçid sürətlənəcək, kənd təsərrüfatı inkişaf edəcək, manatın məzənnəsi sabit qalacaq, məşğulluq artacaq, əmlak bazarı canlanacaq.

SƏHİFƏ 10-da




## TRAMPIN DÖNÜŞÜ, ƏSƏDİN GEDİŞİ

2024-cü il beynəlxalq aləmdə bir çox sürpriz olaylarla yadda qaldı. Köhnə münaqişələr davam etdi, yeni gərginlik ocaqları yarandı. İl ərzində dünya siyasətinə ciddi təsir göstərəcək hadisələrin yaşandığı da diqqətdən qaçmadı.

SƏHİFƏ 7-də



## “BEŞ İLDİR Kİ, ÖZÜMƏ “DUR!” DEYİRƏM”

“İşdə məhəbbət macərası”nın yaddaşlarda iz buraxan Lyudmilası Alisa Freyndlix 90 yaşını qeyd edir. Aktrisanın 70 ildir davam edən əmək fəaliyyətinə 50-dən çox film və serial daxil olub.

SƏHİFƏ 14-də




# 2025 "Konstitusiya və Suverenlik İli" elan edildi

Azərbaycanda 2025-ci il "Konstitusiya və Suverenlik İli" elan edilib. Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev Sərəncam imzalayıb.

Sərəncamda bildirilir ki, müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüzillər boyu Azərbaycan xalqının ən böyük arzusu olub.

1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtmış Ümummilli Lider Heydər Əliyevin böyük xilaskarlıq missiyası sayəsində ölkəmizdə cərəyan edən təhlükəli proseslərin qarşısı alındı, ictimai-siyasi sabitlik təmin edildi və müasir dövlət quruculuğu üçün etibarlı zəmin yarandı. Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynayıb.

Konstitusiyanın preambulasında Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması başlıca niyyətlərdən biri kimi bəyan edilib.

2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19–20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilib, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olub.



# HƏLAK OLAN EKİPAJ ÜZVLƏRİ DƏFN EDİLDİLƏR

**Həlak olan ekipaj üzvləri - gəmi komandiri İqor Kşnyakin, pilot Aleksandr Kalyaninov və stüardessa Hökumə Əliyeva ilə vida mərasimi keçirilib. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər, onların ailə üzvlərinə və yaxınlarına başsağlığı veriblər.**

**F.ABASOĞLU**

Dekabrın 29-da Heydər Əliyev Beynəlxalq Aeroportunda Bakı-Qroznı reysini yerinə yetirən "Embraer 190" tipli sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində həlak olan ekipaj üzvləri ilə vida mərasimi keçirilib. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva vida mərasimində iştirak ediblər, onların ailə üzvlərinə və yaxınlarına başsağlığı veriblər.

Vida mərasimində digər rəsmi şəxslər və ictimaiyyət nümayəndələri də iştirak ediblər. Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Sonra təyyarə qəzasında həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



### AVİASİYA TARİXİMİZDƏ SİLİNMƏZ İZ BURAXDILAR

Mərasimdə çıxış edən rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev hadisə baş verən andan xalqımızın kədərə boğulduğunu deyib. Nazir belə bir çətin vəziyyətdə pilotlarımızın, təyyarə bələdçilərinin böyük soyuqqanlılıq, fədakarlıq və yüksək peşəkarlıq nümayiş etdirdiyini qeyd edib. O, Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) təhlükəsizlik və keyfiyyət standartlarına görə dünya miqyasında etibarlı aviaşirkətlərdən biri kimi tanındığını, pilotların göstərdiyi şücaətin Azərbaycanın aviasiya tarixində silinməz iz buraxdığını diqqətə çatdırıb.



**Foto:** Rüfət MİKAYILOV- Global Photostock

### PEŞƏKARLIQ NÜMUNƏSİ İDİLƏR

AZAL-ın vitse-prezidenti İlham Əmirov təyyarəyə qeyri-qanuni güc təsiri olduğunu, nəticədə təyyarənin güclü xəsarət aldığını, onu idarə edən sistemlərin sıradan çıxarıldığını bildirib. O, baş vermiş hadisənin ölkəmizin pilot hazırlığının və aviasiya təhlükəsizliyinin yüksək standartlara uyğun olduğunu göstərdiyini bildirib. Vitse-prezident günahkarların tapılacağını və cəzalandırılacağını, hadisənin bütün detallarının araşdırıldıqdan sonra nəticələrlə bağlı ictimaiyyətə məlumat veriləcəyini diqqətə çatdırıb.

Həlak olan ekipaj üzvlərinin yaxınları və onlarla birgə çalışan əməkdaşlar xatirələrini bölüşüblər.

### HƏLAK OLAN EKİPAJ ÜZVLƏRİNƏ MİLLİ QƏHRƏMAN ADI VERİLDİ

Qeyd edək ki, Bakı-Qroznı reysini yerinə yetirən "Embraer-190" tipli sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində həlak olan üç ekipaj üzvü - gəmi komandiri İqor Kşnyakin, pilot Aleksandr Kalyaninov və stüardessa Hökumə Əliyeva dekabrın 29-da II Fəxri xiyabanda torpağa tapşırılıblar.

Dəfn mərasimində dövlət və hökumət rəsmiləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

AZAL-a məxsus "Embraer 190" tipli sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində həlak olan ekipaj üzvlərinə - İqor İvanoviç Kşnyakin, Aleksandr Georgiyeviç Kalyaninov, Hökumə Cəlil qızı Əliyevaya ölümlərindən sonra Azərbaycanın Milli Qəhrəmanı adı verilib. Prezident İlham Əliyev bununla bağlı sərəncam imzalayıb.

Onlar qəza zamanı xidməti vəzifələrinin yerinə yetirilməsində, sərnişinlərin həyatının xilas edilməsində yüksək peşəkarlıq, şücaət və fədakarlıq göstərdiklərinə görə təltif ediliblər.

Dövlət başçısının digər sərəncamı ilə xəsarət alan ekipaj üzvləri - Zülfiqar Sərdar oğlu Əsədov və Aydan Vaqif qızı Rəhimli isə 1-ci dərəcəli "Rəşadət" ordeni ilə təltif ediliblər.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi


# “HƏM AĞILSIZLIQDIR, HƏM DƏ VİCDANSIZLIQDIR”



## Prezident İlham Əliyev: “Bizi təəssüfləndirən və təəccübləndirən məqamlardan biri də o idi ki, Rusiyanın rəsmi qurumları hansısa qaz balonunun partlaması ilə bağlı versiyalar irəli sürmüşdü. Yəni, bu, açıq-aydın göstərirdi ki, Rusiya tərəfi məsələni ört-basdır etmək istəyir və əlbəttə, bu, heç kimə başucalığı gətirmir”.

Prezident İlham Əliyev dekabrın 29-da Azərbaycan Televiziyasına müsahibə verib. Dövlət başçısı bir neçə gün əvvəl baş vermiş təyyarə qəzası ilə bağlı yaşananlara münasibətini açıqlayıb.

### “RUSİYADAN CƏFƏNG VERSİYALARDAN BAŞQA HEÇ NƏ EŞİTMƏMİŞİK”

Prezident deyib ki, təyyarənin qəzaya uğraması ilə bağlı son versiya “qara qutu”lar açılandan sonra bəlli olacaq. Ancaq ilkin versiyalar da kifayət qədər əsaslıdır və faktlara söykənir. Faktlar isə ondan ibarətdir ki, Azərbaycanın mülki təyyarəsi Rusiya ərazisində, Qrozni şəhərinin yaxınlığında xaricdən zədə alıb və idarəetməni demək olar ki, itirib: “Onu da bilirik ki, təyyarəmiz radioelektron mübarizə vasitələri tərəfindən idarəolunmaz vəziyyətə salınmışdır. Bu, təyyarəyə yetirilən birinci xətərdir. Eyni zamanda, yerdən açılan atəş nəticəsində təyyarənin quyruq hissəsi də böyük dərəcədə zədələnmişdir və dərhal, elə həmin gün bizim heyətimiz Aktau şəhərində artıq o videomaterialları təşkil edəndə ictimaiyyət də bu məsələ ilə məlumatlandırıldı. Füzelyajın dəlik-deşik olması, əlbəttə, göstərir ki, bilmirəm, ilkin olaraq kimin tərəfindən atılmış quş versiyası tamamilə gündəlikdən çıxarıldı. Ola bilər ki, təyyarə zədə alanda, zərbə alanda pilot bunu quşların təyyarə ilə toqquşması kimi qəbul edə bilərdi. Çünki yəqin ki, heç kimin ağlına gələ bilməzdi ki, bizim üçün dost olan ölkədə bizim təyyarəyə yerdən atəş açılsın. Ancaq təəssüflər olsun ki, Rusiyanın bəzi dairələri bu versiya üzərində dayanmağa üstünlük vermişdilər. Bizi təəssüfləndirən və təəccübləndirən məqamlardan biri də o idi ki, Rusiyanın rəsmi qurumları hansısa qaz balonunun partlaması ilə bağlı versiyalar irəli sürmüşdü. Yəni, bu, açıq-aydın göstərirdi ki, Rusiya tərəfi məsələni ört-basdır etmək istəyir və əlbəttə, bu, heç kimə başucalığı gətirmir. Təbiidir ki, təyyarəmiz təsadüfən vuruldu. Təbiidir ki, burada hər hansı bir qəsdən terror aktı törətmək məsələsindən söhbət gedə bilməz. Ona görə öz günahını etiraf etmək, dost ölkə sayılan Azərbaycandan vaxtında üzr istəmək və bunu ictimaiyyətə bildirmək - bütün bunlar görüləsi tədbirlər idi və addımlar idi. Əfsuslar olsun ki, birinci üç gün ərzində biz Rusiyadan cəfəng versiyalardan başqa heç nə eşitməmişik”.

## “TƏYYARƏ NƏ ÜÇÜN QROZNI ŞƏHƏRİNƏ ENƏ BİLMƏDİ?”

Prezident deyib ki, qəzanın təfərrüatları tam araşdırılacaq: “Azərbaycan ilk gündən beynəlxalq ekspertlərdən ibarət qrupun bu işlə məşğul olmasının tərəfdarı idi. Rusiya tərəfi rəsmi qaydada bizə təklif etmişdi ki, Dövlətlərarası Aviasiya Komitəsi bu işi araşdırsın. Biz isə qəti şəkildə bundan imtina etdik. Səbəb də aydındır. Çünki sirr deyil ki, bu qurum daha çox Rusiya məmurlarından ibarətdir və qurumun başında Rusiya vətəndaşları dayanır”.

Dövlət başçısının sözlərinə görə, “qara qutu”lar açılandan sonra hadisənin tam təfərrüatları üzə çıxacaq və bu gün hələ ki, sual kimi qalan bir çox məsələlərə aydınlıq gətiriləcək. Məsələn, təyyarə nə üçün Qrozni şəhərinə enə bilmədi? Radioelektron mübarizənin təsiri nə dərəcədə təyyarənin idarə olunmasına təsir göstərib? Havada endirilən zərbə və təyyarənin yanında olan partlayışın nəticələri nə dərəcədə təsirli oldu? “Onu da bildirməliyəm ki, bu, açıq-aydın faktı inkar etmək və burada gözdən pərdə asmaq cəhdləri həm cəfəngiyyatdır, həm də ağılsızlıqdır. Çünki xoşbəxtlikdən ekipajın qəhrəmanlığı sayəsində elə hadisə baş verdi ki, təyyarə enə bildi, qəza enişi olsa da, təyyarə enə bildi. Sərnişinlərin bir çoxu xilas edildi, onların ifadələri var. Təyyarəni deşən qəlpələrin sərnişinlərə və ekipaj üzvlərinə yetirdiyi xəsarət göz qabağındadır. Bunu hansısa quşlarla bağlamaq, yaxud da ki, qaz balonunun partlaması kimi qələmə vermək həm ağılsızlıqdır, həm də vicdansızlıqdır”, - Azərbaycan Prezidenti deyib.

### “BU, BİR SINAQ MƏSƏLƏSİ İDİ”

Qazaxıstan xilasedicilərinin də fəaliyyətini yüksək dəyərləndirən Prezident qazaxıstanlı həmkarı ilə danışıqlarına da toxunub: “Mən Prezident Tokayevlə söhbət zamanı Azərbaycanın istintaqla bağlı mövqeyini də bildirdim və bax, sizə dediyim məsələləri də onun diqqətinə çatdırdım ki, biz beynəlxalq ekspertizanın tərəfdarıyıq və heç cür bu məsələni Dövlətlərarası Aviasiya Komitəsinin sərəncamına verə bilmərik. Bu mövqe də anlayışla qarşılandı”. Prezident qeyd edib ki, o, söhbət zamanı Prezident Tokayevə də başsağlığı verib: “Bu nə qədər ağır hadisə olsa belə, eyni zamanda, bir sınaq məsələsi idi. Yəni, bu sınaqdan kim necə çıxacaq?”

### RUSİYADAN GÖZLƏNTİLƏR VƏ TƏLƏBLƏRİMİZ

Prezident Azərbaycanın baş verənlərlə bağlı Rusiyadan gözləntiləri və tələblərinin nədən ibarət olduğuna da aydınlıq gətirib: “Biz öz tələblərimizi açıq şəkildə Rusiya tərəfinə bildirmişik. Dekabrın 27-də artıq bu tələblər rəsmi qaydada onlara çatdırıldı. Bu, nədən ibarətdir? Birincisi, Rusiya tərəfi Azərbaycandan üzr istəməlidir. İkincisi, öz günahını etiraf etməlidir. Üçüncüsü, günahkarları cəzalandırmalıdır, cinayət məsuliyyətinə cəlb etməlidir və Azərbaycan dövlətinə və zərərçəkən sərnişin və ekipaj üzvlərinə təzminat ödəməlidir. Bu, bizim şərtlərimizdir. Onlardan birincisi artıq dünən təmin edildi. Mən ümid edirəm ki, digər şərtlərimiz də qəbul ediləcək. Bütün bu şərtlər ədalətlidir”.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi





# Hamımızı kədərləndirən DƏHŞƏTLİ QƏZA

Təkzibolunmaz faktlar AZAL-a məxsus Bakı-Qroznı aviareysindəki qəzanın Rusiyanın hava məkanında baş verdiyini təsdiqləyir. Rusiya Prezidenti Vladimir Putin də dekabrın 28-də azərbaycanlı həmkarı İlham Əliyevə zəng edərək üzr istəyib.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Yola salmağa hazırlaşdığımız ilin son həftəsində dövlətimizi və xalqımızı kədərə boğan dəhşətli qəzaya şahidlik etdik. "Azərbaycan Hava Yolları"na (AZAL) məxsus Bakı-Qroznı aviareysini həyata keçirən sərnişin təyyarəsi dekabrın 25-də Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğrayıb. Təyyarənin göyərtəsindəki 67 nəfərdən 42-si Azərbaycan, 16-sı Rusiya, 6-sı Qazaxıstan, 3-ü isə Qırğızıstan vətəndaşı olub. Onlardan 38-i həlak olub, 29-u sağ qalıb. Hər iki pilot da daxil olmaqla, üç ekipaj üzvü həlak olub, iki ekipaj üzvü isə sağ qalıb. Hadisədən sonra Prezident İlham Əliyevin tapşırığı ilə təyyarə qəzasının səbəblərinin araşdırılması üçün Dövlət Komissiyası yaradılıb. Eyni zamanda, dövlət başçısı dekabrın 26-nın Azərbaycanda matəm günü elan olunması barədə sərəncam imzalayıb.

**HƏQİQƏTƏ UYĞUN OLMAYAN VERSİYALAR GÜNDƏMDƏN ÇIXARILIB**

Bu məşum hadisə nə qədər kədərli və ağır faciə olsa da, onun fəsadlarının azaldılması, başvermə səbəblərinin müəyyənləşdirilməsi ilə bağlı dövlətin ali rəhbərliyinin ortaya qoyduğu qətiyyət və siyasi iradə son nəticədə öz sözünü deyib. Rusiyaya səfərini yarımçıq qoyaraq dərhal Azərbaycana qayıdan Prezident İlham Əliyev hava limanında operativ müşavirə keçirərək ilk dəqiqələrdən bütün zəruri tədbirlərin görüləcəyini bildirib.

Qeyd edək ki, ilk anlardan etibarən qəzanın başvermə səbəbləri ilə bağlı bir sıra həqiqətə uyğun olmayan ehtimallar ortaya atılıb. Təyyarənin quş sürüsü ilə toqquşması, salonda oksigen balonunun partlaması kimi həqiqətdən uzaq bu ehtimallar elə ilk gündən Bakının operativ müdaxiləsi və hadisənin əsl səbəblərinin şəffaf şəkildə araşdırılmasında qətiyyəti sayəsində sıradan çıxarılıb.



İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

VLADİMİR PUTİN
RUSİYA FEDERASİYASININ PREZİDENTİ

## "EMBRAER 190" TƏYYARƏSİNƏ ENİŞ İCAZƏSİ VERİLMƏYİB

İlkin araşdırmalar zamanı məlum olub ki, AZAL təyyarəsi Qroznıya yaxınlaşarkən hava hücumundan müdafiə sistemi tərəfindən hücuma məruz qalıb. Zərər görmüş təyyarənin pilotlarının məcburi eniş üçün etdiyi sorğulara baxmayaraq, Rusiya hava limanlarında təyyarəyə eniş icazəsi verilməyib. Ekipaj Xəzər dənizi üzərindən Qazaxıstanın Aktau şəhərinə yönləndirilib. Təyyarənin GPS naviqasiyası dəniz üzərindəki bütün marşrut boyunca bloklanıb.

**PİLOTLARIN PEŞƏKARLIĞI 29 NƏFƏRİ XİLAS EDİB**

Ekspertlər də bildirirlər ki, bu cür zədə alan təyyarənin uzun müddət havada qalması, böyük məsafə qət etməsi və baş verən hadisədə 29 nəfərin sağ qalması pilotların və ekipaj üzvlərinin peşəkarlığının nəticəsidir. Burada Qazaxıstan tərəfinin hadisə zamanı faciənin miqyasının böyüməməsi üçün göstərdiyi operativ reaksiya da qeyd edilməlidir. İlk dəqiqələrdən etibarən Qazaxıstan dövlətinin və ictimaiyyətinin baş vermiş faciəyə yüksək həssaslıqla yanaşması təqdirəlayiqdir.

Bu qarşılıqlı fəaliyyət nəticəsində həlak olanların şəxsiyyətinin müəyyənləşdirilməsi, onların nəşlərinin və yaralıların Bakıya gətirilməsi təmin edilib. Bundan əlavə, AZAL-ın Müşahidə Şurasının qərarı ilə "Embraer 190" təyyarəsində olan və xəsarət alanların hər birinə 20.000 manat, vəfat edənlərin hər birinin ailəsinə isə 40.000 manat kompensasiya ödəniləcək.

## PUTİN ÜZR İSTƏDİ

Təkzibolunmaz faktlar qəzanın məhz Rusiya hava məkanında baş verdiyini təsdiqləyir. Rusiya Prezidenti Vladimir Putin dekabrın 28-də azərbaycanlı həmkarı İlham Əliyevə zəng edib. Telefon danışığı əsnasında Putin "Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Rusiyanın hava məkanında fiziki-texniki xarakterli kənar müdaxiləyə məruz qalması və nəticədə baş vermiş faciəvi hadisə ilə bağlı üzrxahlığını ifadə edib, bu qəzada həlak olanların ailələrinə və yaxınlarına dərin və ən səmimi başsağlığını bir daha çatdırıb, xəsarət alanların tezliklə şəfa tapmasını dilədiyini deyib.

Prezident İlham Əliyev "Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Rusiyanın hava məkanında olan zaman kənar fiziki-texniki müdaxiləyə məruz qaldığını və idarəetməsini tam itirdiyini, Qazaxıstanın Aktau şəhərinə doğru yönləndirildiyini, yalnız pilotların şücaəti və peşəkarlığı sayəsində qəza enişi edə bildiyini qeyd edib. Dövlətimizin başçısı təyyarənin gövdəsində çoxsaylı dəliklərin olmasının, hələ havada olarkən sərnişinlərin və heyət üzvlərinin təyyarənin göyərtəsini dəlib içəri daxil olan yad hissəciklərlə yaralanmalarının, bu xüsusda, sağ qalan təyyarə bələdçilərinin və sərnişinlərin ifadələrinin kənar fiziki-texniki müdaxilə faktını təsbit etdiyini vurğulayıb.

Dövlət başçıları faciə ilə əlaqədar başlanılmış istintaq prosesinin tam şəffaf şəkildə aparılacağını və mütəmadi qaydada ictimaiyyətə məlumat veriləcəyini vurğulayıblar.

**KOMPENSASİYA ÖDƏNİLMƏSİ, GÜNAHKARLARIN CƏZALANDIRILMASI GÖZLƏNTİSİ**

Bununla belə, Bakı Rusiyadan tək üzr yox, həm də beynəlxalq təcrübəyə əsasən digər addımların da atılmasını gözləyir. Buraya qəzada zərərçəkənlərə kompensasiyaların ödənilməsi, günahkarların cəzalandırılması gözləntisi də daxildir. Artıq Rusiyada baş vermiş hadisə ilə bağlı cinayət işi açılıb. Cinayət işi Rusiya İstintaq Komitəsinin (İK) mərkəzi aparatına tapşırılıb. "Rusiya Federasiyası Cinayət Məcəlləsinin 263-cü maddəsi (hərəkət təhlükəsizliyi və hava nəqliyyatının istismarı qaydalarını pozma) ilə Qərb Regionlararası Nəqliyyat İstintaq İdarəsi tərəfindən başlanmış cinayət işi hərtərəfli araşdırılması üçün Rusiya İstintaq Komitəsinin Baş İstintaq İdarəsinə verilib", - qurumdan bildirilib.

Son məlumatlara görə, Azərbaycan prokurorluq orqanlarının əməkdaşları da istintaq prosesində iştirak etmək üçün Qroznıya səfər ediblər. Hazırda qəzanın səbəbləri ilə bağlı araşdırma 17 beynəlxalq ekspert tərəfindən aparılır.

Bütün bunlar onu söyləməyə əsas verir ki, bizləri kədərə boğan təyyarə qəzasının əsl günahkarları tezliklə müəyyənləşdirilərək layiqi cəzalarını alacaqlar.

2024-CÜ İLDƏ DƏ AZƏRBAYCAN ÇOXVEKTORLU XARİCİ SİYASƏTİNİ UĞURLA DAVAM ETDİRİB

# İLKLƏR VƏ UĞURLAR İLİ



2024-cü il ölkəmizin tarixinə önəmli hadisələrlə yazıldı. Bu ildə yaşadıqlarımız, əldə olunan nəticələr 2025-ci ildə daha möhtəşəm uğurlara imza atacağımıza dəlalət edir.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

2024-cü il Azərbaycanın müstəqillik tarixinə ən uğurlu illərdən biri kimi yazıldı. Dünyada və bölgəmizdə cərəyan edən gərgin proseslər fonunda ölkəmizdə mövcud olan ictimai-siyasi sabitlik, iqtisadi inkişaf, Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzu bu qənaətə gəlməyə əsas verir. 2024-cü il həm də Azərbaycan üçün çoxsaylı ilklərlə yadda qaldı.

### PREZİDENT VƏ PARLAMENT SEÇKİLƏRİ İLİ

Yola saldığımız ildə ölkəmiz üçün ən mühüm siyasi hadisə təbii ki, fevralın 7-də təşkil olunan növbədənkənar Prezident seçkisi oldu. Bu, əslində Zəfər seçkisi idi. Çünki ilk dəfə olaraq seçki prosesi Azərbaycanın bütün suveren ərazilərini əhatə edirdi. İlk dəfə olaraq keçmiş məcburi köçkünlərin bir qismi öz seçimlərini işğaldan azad edilən doğma yurdlarında edirdilər. Təbii ki, bu seçkilərdə Azərbaycan xalqının seçimi Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev oldu. Xalq dövlətini Zəfər yoluyla daha uğurlu gələcəyə aparan liderinə növbəti dəfə dərin sevgisi və sarsılmaz inamını ifadə etdi. Sentyabrın 1-də isə ilk dəfə olaraq Azərbaycanın bütün suveren ərazilərində növbədənkənar parlament seçkiləri təşkil olundu.

### DÖVLƏT SUVERENLİYİ GÜNÜNÜN TƏSİSİ

2024-cü ili yaddaqalan edən digər bir hadisə Prezident İlham Əliyevin Dövlət Suverenliyi Gününün təsis edilməsi ilə bağlı Sərəncamı oldu. Sentyabrın 19-u antiterror tədbirləri nəticəsində Azərbaycanın bütün ərazilərində tam suverenliyinin bərpasının ildönümü ərəfəsində belə bir sərəncamın imzalaması xalq tərəfindən alqışlandı.

### XARİCİ SİYASƏTDƏKİ UĞURLAR

Başa çatmaqda olan 2024-cü ildə də Azərbaycan çoxvektorlu xarici siyasətini uğurla davam etdirib. Dövlət başçısının fevralın 16-18-də Almaniyaya səfəri ilə başlayan 2024-cü il ölkəmizin xarici siyasət və beynəlxalq aləmlə yeni əməkdaşlıqların qurulması fəaliyyətində dinamikliyi ilə fərqlənir. Azərbaycan Prezidenti il ərzində iki dəfə Almaniyada, iki dəfə Türkiyədə, iki dəfə Qazaxıstanda, üç dəfə Rusiyada, Misirdə, Pakistanda, Böyük Britaniyada, Özbəkistanda, İtaliyada və Qırğızıstanda səfərdə olub.

İlin əvvəlindən indiyədək Prezident İlham Əliyev təqribən 200-ə yaxın xarici qonaq qəbul edib ki, onlardan da 50-dən çoxu Prezident, Baş nazir və beynəlxalq təşkilat rəhbəridir.

### İŞĞALDAN AZAD EDİLƏN ƏRAZİLƏRİN BƏRPASI PRİORİTET OLDU

İşğaldan azad edilən ərazilərin bərpası, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı 2024-cü ildə də intensiv şəkildə davam etdirilib. Dövlət başçısı işğaldan azad olunmuş ərazilərə 2024-cü ildə ilk səfərini fevralın 26-da Xocalı şəhərinə edib. Prezident burada Xocalı Soyqırımı Memorialının təməlini qoyub. Bu il həm də xarici dövlət başçılarının azad edilən rayonlara səfərləri ilə yadda qalıb. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Qırğızıstan Prezidenti Sadır Japarov Füzuli və Ağdama səfər ediblər. Mayın 10-da Şuşada birinci yaşayış kompleksi istifadəyə verilib. Hazırda işğaldan azad edilmiş ərazilərdə ümumilikdə 30 mindən çox şəxs məskunlaşıb, fəaliyyət göstərir.

## Ölkəmiz çoxsaylı beynəlxalq tədbirlər məkanı oldu




Azərbaycan hər zaman olduğu kimi, bu il də çoxsaylı beynəlxalq tədbirlərə ev sahibliyi edib. Onların sayı 130-a bərabərdir. Bu tədbirlərin əksəriyyətində Prezident İlham Əliyev bilavasitə iştirak edib.

Onların sırasında ən çox diqqət çəkənlərdən biri də Türk Dövlətləri Təşkilatının dövlət başçılarının Şuşada keçirilən qeyri-rəsmi Zirvə görüşü olub.

Şuşada keçirilən daha bir beynəlxalq tədbir - İkinci Qlobal Media Forumu xüsusi qeyd olunmalıdır. Forumda iştirak edən Prezident İlham Əliyevin dünya siyasəti və bölgəmizlə bağlı açıqlamaları böyük maraqla qarşılanıb.

### SÜLH DANIŞIQLARINDA YENİ MƏRHƏLƏ

İlin əvvəlində Almaniyanın təşəbbüsü ilə keçirilən ikitərəfli görüşlə başlayan sülh danışıqları sonradan bir neçə mərhələdə irəlilədi.

Ən sonda 2024-cü ilin may ayında Azərbaycan bu istiqamətdə daha bir möhtəşəm qələbəyə imza ataraq qeyd-şərtsiz Qazaxın 30 il işğal altında qalan Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndlərinin nəzarətimizə qaytarılmasını təmin etdi. Həmçinin iki ölkə arasında ilk dəfə olaraq sərhəd komissiyalarının birgə iştirakı ilə müvafiq istiqamətdə delimitasiya və demarkasiya işləri aparıldı. Sülh danışıqları ilə bağlı tərəflər ən ali səviyyədə Kazanda bir araya gəliblər. Son məlumatlara görə, tərəflər sülh sazişi mətninin 17 bəndindən 15-ni artıq razılaşdırıblar.

## COP29 - 2024-CÜ İLİN ƏN BÖYÜK TƏDBİRİ

Başa çatmaqda olan ilin ən əhəmiyyətli beynəlxalq tədbiri isə COP29 oldu. Ölkəmizdə elan olunmuş "Yaşıl dünya naminə həmrəylik ili"ndə Azərbaycanın ev sahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası həm təşkilatçılıq, həm də alınan qərarlar baxımından COP-lar tarixinə ən uğurlu tədbir kimi düşüb. Bu tədbirin hazırlıq müddəti cəmi 10 ay çəksə də, sammitin yüksək səviyyədə keçirilməsi üçün bütün zəruri tədbirlər




görüldü, lazımi infrastruktur yaradıldı. COP29-da iştirak etmək üçün 196 ölkədən 72 min iştirakçının qeydiyyatdan keçməsi, qonaqların arasında 80 prezidentin, vitse-prezidentin və Baş nazirin olması isə həm dövlətimizə etimadın, həm də onun beynəlxalq arenada oynadığı fəal rolun növbəti dəfə sübutu idi.

Göründüyü kimi, qeyd etdiklərimiz yola salmağa hazırlaşdığımız 2024-cü ildə baş verən önəmli hadisələrin kiçik bir hissəsidir. Ümumilikdə bu ildə yaşadıqlarımız, əldə olunan nəticələr 2025-ci ildə daha möhtəşəm uğurlara imza atacağımıza dəlalət edir.

# ZƏFƏR PARKI, Qarabağ Universiteti...



Əjdaha ili ölkə daxilində mühüm hadisələrlə zəngin oldu. Zəfər parkının açılışı, Xankəndidə Qarabağ Universitetinin istifadəyə verilməsi, qanunvericilikdə geniş müzakirələrə yol açan dəyişikliklər bu olayların ən diqqətçəkənləridir.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

2024-cü il başa çatır. Geridə qoyduğumuz günlər fəxr etdiyimiz hadisələr, həyəcanlandığımız anlar və köks ötürdüklərimizlə yadda qaldı. İtirdik də, qazandıq da... Amma bu il də gələcək nəsillərin tarix kitablarında qalib Azərbaycanla bağlı rast gələcəyi hadisələr az olmadı.

Gəlin nəzər salaq, geridə qoyacağımız əjdaha ilində ölkəmizdə nələr baş verdi?

### MÜSTƏQİLLİK TARİXİNİN ƏN BÖYÜK BÜDCƏSİ

2024-ildə Azərbaycan müstəqillik tarixinin ən böyük dövlət büdcəsi təsdiqləndi. Belə ki, 2025-ci ilin dövlət büdcəsinin gəlirləri 38 milyard 356 milyon manat, xərcləri 41 milyard 407 milyon 600 min manat oldu. Dövlət büdcəsi ölkəmizin əsas hədəfləri və Prezident İlham Əliyev tərəfindən qarşıya qoyulan əsas prioritet vəzifələr nəzərə alınmaqla hazırlanıb. Prioritet istiqamətlər sırasında ölkənin hərbi-müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin gücləndirilməsi dayanır.

### ZƏFƏR PARKI İSTİFADƏYƏ VERİLDİ

Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 8-də Bakıda Dövlət Bayrağı Meydanında Azərbaycanın üçrəngli bayrağını ucaldıb. Üçrəngli bayrağımız ölçüsünə görə "Ginnesin rekordlar kitabı"na düşüb. Həmçinin Prezidentin iştirakı ilə Bakıda Zəfər parkının açılışı olub. Park Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması və ictimaiyyətə nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə salınıb.

### İLİN BİZİ QÜRURLANDIRAN ƏSAS HADİSƏLƏRİNDƏN BİRİ

İlin bizi qürurlandıran hadisələrindən bəhs edərkən, Qarabağ Universitetindən danışmamaq olmaz. Zəfər tariximizin qürurverici hadisələrindən biri də Qarabağ Universitetinin fəaliyyətə başlaması idi. Qarabağda ilk ali təhsil ocağı 1969-cu ildə Azərbaycan Pedaqoji İnstitutunun filialı kimi yaranıb, 1973-1988-ci illərdə ali təhsil müəssisəsi kimi fəaliyyət göstərib, ərazilərimizin işğalı dövründə isə fəaliyyətini dayandırıb. Prezident İlham Əliyevin 2023-cü il 28 noyabr tarixli Sərəncamına əsasən Xankəndi şəhərində Qarabağ Universitetinin yaradılması həm də strateji önəm daşıyır. Bu ali təhsil müəssisəsində yüksəkixtisaslı kadrların hazırlanması prosesi bölgənin inkişafında xüsusi rol oynayacaq. 2024-2025-ci tədris ili üzrə Qarabağ Universitetinə 1104 nəfər tələbə qəbul olub. Növbəti tədris ilində təxminən 1500-ə qədər tələbə qəbulu planlaşdırılır. Həmçinin 2024-cü ildə Cəbrayıl şəhərində Mehdi Mehdizadə adına 960 şagird yerlik tam orta məktəbin açılışı olub. Laçın rayonu Sus kənd 132 şagird yerlik tam orta məktəbi də 2024-cü ildə öz fəaliyyətinə başlayıb. Nizami Gəncəvi adına Xankəndi şəhər 4 nömrəli 624 yerlik tam orta məktəbi və Xocalı şəhər 132 şagird yerlik tam orta məktəbi də 2024-cü ildə istifadəyə verilən məktəblərin sırasında yer alır.




### XOCALIDA NOVRUZ BAYRAMI

İlin ən çox gözlənilən və sevindirən hadisələrindən biri, martda Xankəndi və Xocalıda uzun illərdən sonra ilk dəfə Novruz bayramının qeyd edilməsi idi.

Xocalıda yanan Novruz tonqalının alovu bu il bütün ölkəni isitdi. Çünki 2024-cü ilin bayram tonqalı əvvəlki illərdəkindən daha gur idi.








## QANUNLARDA DƏYİŞİKLİKLƏR

2024-cü ilin yaddaqalan hadisələrdən biri də "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanuna təklif edilən dəyişikliklərdir. Yeni qaydalara görə, çağırış yaşı 35-dən 30-a endirilir. Milli Məclisdə qəbul edilən qanun layihəsi cəmiyyətdə geniş müzakirələrə səbəb olub.

İlin yaddaqalan hadisələrini qeyd edərkən Ailə Məcəlləsinə edilən dəyişiklikdən danışmamaq olmaz. Ailə Məcəlləsinə təklif edilən dəyişikliyə əsasən, qan qohumlarının nikaha daxil olması qadağan edilir. Həmçinin erkən nikahlarla bağlı 17 yaşda evliliyə icazə istisnası ləğv edilir. Layihədə nikah yaşının azaldılması ilə bağlı istisnanın ləğvi, 16 yaşına çatmayan şəxsin erkən evliliyinin təşkilinə, həmin yaşda olan şəxs barəsində evliliyə dair sövdələşməyə daxil olmağa, erkən evliliklə bağlı mərasimlərin keçirilməsinə və dini kəbin kəsməyə görə geniş subyektlər dairəsi üçün məsuliyyətin müəyyən edilməsi təklif olunub.

## MİNİMUM ƏMƏKHAQQI VƏ TƏQAÜDLƏR ARTIRILDI

İli yola saldığımız bu günlərdə Prezident İlham Əliyev "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" Sərəncam imzaladı, minimum əməkhaqqı, pensiyalar artırıldı. Sərəncama əsasən, minimum aylıq əməkhaqqının məbləği 2025-ci il yanvarın 1-dən 400 manat müəyyən edilib. Nazirlər Kabinetinə isə əmək pensiyasının minimum məbləğinin 2025-ci il fevralın 1-dən 320 manata çatdırılmasına dair təkliflərini bir ay müddətində Prezidentə təqdim edilməsi tapşırılıb. Eyni zamanda hökumət sosial müavinətlərin və təqaüdlərin məbləğlərinin artırılması ilə bağlı təkliflərini də üç ay müddətində dövlət başçısına təqdim etməlidir.

### İTİRDİKLƏRİMİZ...

Geridə qoyduğumuz əjdaha ili bizi tək alovunda isitmədi, həm də yandırdı. Yeni ilin doqquzuncu günündə ölkə olaraq Respublika Perinatal Mərkəzində başlayan yanğınla sarsıldıq. Bakı şəhərinin Xətai rayonunun ərazisində yerləşən Mərkəzin Anesteziologiya, reanimasiya və intensiv terapiya şöbəsinin Yenidoğulmuşların intensiv terapiya bölməsinin yerləşdiyi dördüncü mərtəbədəki palatasında baş vermiş yanğın nəticəsində yeddi yenidoğulmuş uşaq ölüb, dörd nəfər xəsarət alıb, müəssisəyə isə ümumilikdə 361 min manat məbləğində maddi ziyan dəyib. Bu hadisədən qısa müddət sonra isə Binəqədi rayonunun A.Kunanbayev küçəsi yaxınlığında yerləşən mebel sexində can itkisi ilə nəticələnən partlayışı da unutmuruq.

# TRAMPIN DÖNÜŞÜ, ƏSƏDİN GEDİŞİ



**2024-cü il beynəlxalq aləmdə bir çox sürpriz olaylarla yadda qaldı. Köhnə münaqişələr davam etdi, yeni gərginlik ocaqları yarandı. İl ərzində dünya siyasətinə ciddi təsir göstərəcək hadisələrin yaşandığı da diqqətdən qaçmadı.**



AZƏR NURİYEV

Geridə qoyduğumuz 2024-cü il dünyada müharibələr, terror hadisələri, böhranlar, təbii fəlakətlərlə yadda qaldı. Şübhəsiz, ilin ən diqqətçəkən hadisəsi ABŞ-də Donald Trampın yenidən prezident seçilməsi, ardınca Suriyada 50 il hakimiyyətdə olmuş Əsəd ailəsinin devrilməsi oldu.

### İRANLA İSRAİL ARASINDA MÜHARİBƏ TƏHLÜKƏSİ

2024-cü ilin əvvəlində İranla İsrail arasında münasibətlər az qala müharibə həddinə çatdı. İranın HƏMAS-ı, Yəməndə husilərin Qırmızı dənizdə quldurluq fəaliyyətini, Livanda "Hizbullah"ın İsrailə qarşı hücumlarını dəstəkləməsi vəziyyəti xeyli gərginləşdirdi. İran və onun dəstəklədiyi silahlı qruplaşmalar tərəfindən İsrailə qarşı 2024-cü il aprelin 13-də raket və dron zərbələri həyata keçirildi. Bu, İran-İsrail münaqişəsi başlayandan bəri iki ölkə arasında ilk birbaşa hərbi qarşıdurma kimi yadda qaldı. Aprelin 1-də İranın Suriyanın Dəməşq şəhərindəki səfirliyinin yanında yerləşən İran konsulluğunun binasına İsrailin hücumu nəticəsində İranın yüksək rütbəli komandiri, briqada generalı Məhəmməd Rza Zahidi də daxil olmaqla 16 nəfər həlak olub. Oktyabrın 1-dən 2-nə keçən gecə İran İsrailə növbəti ballistik raket hücumları təşkil etdi. Ümumilikdə 200-dən çox raket İrandan İsrail ərazisinə atıldı. İran İnqilab Keşikçiləri Korpusundan bildirildi ki, bu hücumlar İranın ali dini lideri Əli Xamneyinin qərarı ilə "Hizbullah" lideri Həsən Nəsrullahın qətlinə cavab olaraq təşkil olunub. Qeyd edək ki, sentyabrın 27-də İsrailin Beyrutda "Hizbullah"ın mərkəzi qərargahını bombalaması nəticəsində təşkilatın baş katibi Həsən Nəsrullah və digərləri öldürülüb. HƏMAS Siyasi Bürosunun baş katibi İsmayıl Haniyənin Tehranda öldürülməsi də ilin ciddi rezonans doğuran hadisələrindən idi.

## 50 İLLİK ƏSƏD REJİMİNİN SONU

Suriyada 2011-ci ildən bəri davam edən vətəndaş müharibəsi Suriyanın siyasi tarixində dərin iz buraxmış Əsəd ailəsinin 53 illik, BƏƏS partiyasının isə 61 illik hakimiyyətinə son qoydu. 2011-ci ildə "Ərəb baharı" dalğasının bir hissəsi kimi ölkədəki avtoritar idarəçiliyə qarşı xalq narazılıqları ilə başlayan etirazlar tədricən bölgədəki ən mürəkkəb və qlobal təsir gücünə malik böhranlardan birinə çevrilib. İlkin olaraq daxili siyasi böhran kimi görünən bu münaqişə, qısa müddətdə müxtəlif qrupların, regional güclərin və beynəlxalq aktorların iştirak etdiyi çoxsəviyyəli müharibəyə səbəb olub, güc balansını pozub. Bu prosesdə "Heyət Təhrir əş-Şam" (HTŞ) qruplaşması, Suriya Milli Ordusu, kürdlərin Milli Birlik Partiyası - PYD, onun hərbi qanadı YPG qüvvələri və digər qruplaşmalar arasında ərazilərə və strateji məntəqələrə nəzarət uğrunda mübarizə başlayıb.

### SÜRPRİZ QƏLƏBƏ - TRAMPIN AĞ EVƏ QAYIDIŞI

Noyabrda ABŞ-də prezident seçkisi keçirildi, Donald Tramp qalib oldu. Onun Ağ evə qayıdışı ABŞ-nin xarici siyasətini yenidən formalaşdırmağı, dünyada müharibə kimi çoxsaylı cəbhələrdə potensial radikal dəyişikliklər vəd edir. Seçki kampaniyası zamanı Tramp "Birinci Amerikadır" prinsiplərinə əsaslanan, çox vaxt konkret təfərrüatları olmayan geniş siyasət vədləri verdi. Sekçi kampaniyası müddətində Tramp dəfələrlə deyib ki, Rusiya və Ukrayna arasındakı müharibəni "bir günə" dayandıra bilər. Necə? Bunu soruşanda isə o, detallara varmaqdan imtina edirdi.



Bəşər Əsəd

## KURSKA HÜCUM

İl ərzində Rusiya-Ukrayna müharibəsi də fasiləsiz davam etdi. Lakin bu il əvvəlkilərdən əsas bir məqamla fərqləndi. Ukrayna Silahlı Qüvvələri avqustdan etibarən Rusiyanın Kursk vilayətinə hücum edərək İkinci Dünya müharibəsindən bəri ilk dəfə olaraq sözügedən ölkənin ərazilərinə nəzarəti ələ keçirdi. 9 avqustda Belqorod, Kursk və Bryansk vilayətlərində antiterror rejiminə start verilib. Ukrayna 1250 kvatrat kilometrdən çox Rusiya ərazini ələ keçirdiyi xəbərini yayıb. Əvəzində isə Rusiya Donbass istiqamətində Ukraynanın yüzlərlə yeni yaşayış məntəqəsini ələ keçirib.

### İLİN TERRORU

Mart ayında Moskvada "Crocus City Hall" konsert zalında terror aktı törədildi. Baş vermiş terror aktında ölənlərin sayı 150 olub. İŞİD Rusiyanın Moskva vilayətində konsert zalındakı terrorun məsuliyyətini öz üzərinə götürüb. Lakin terror təşkilatı iddiası ilə əlaqədar heç bir sübut irəli sürməyib.

### MƏSUD PEZEŞKİAN İRAN PREZİDENTİ OLDU

İranda yayda 14-cü prezident seçkisi baş tutdu. Keçmiş səhiyyə naziri, güney azərbaycanlı Məsud Pezeşkian qalib oldu. Onun prezident seçilməsi müəyyən mənada sensasiya da sayılır. Çünki Pezeşkian bir sıra baxışlarına görə İranda Azərbaycan türklərinin milli assimilyasiyaya məruz qaldığını açıq şəkildə bəyan edənlərdəndir. O, çıxışlarının birində Məhəmmədrza şah Pəhləvinin hakimiyyəti illərində əsgərlikdə türk olduğu üçün məruz qaldığı milli ayrı-seçkiliyin zərbəsini alandan sonra milli kimliyini daha yaxşı dərk etdiyini söyləyib. İranın ali rəhbəri Xameneidən fərqli olaraq, o, bu məsələni daha aydın şəkildə bildirib.

2024-cü il ərzində dünyada baş verənləri analiz edərkən demək mümkündür ki, artıq Üçüncü Dünya müharibəsi başlayıb. Sadəcə, rəsmi bəyanlar yoxdur və bəşəriyyət bunu hələ tam dərk etmir. Ukraynada genişmiqyaslı müharibə, Yaxın Şərqdə bir neçə cəbhə və Şərqi Asiyada artan gərginlik qlobal münaqişənin ilk mərhələsi hesab oluna bilər.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

MÜLKİ AVİASİYANIN ƏSASI QOYULAN GÜNDƏN TƏYYARƏ QƏZALARI YAŞANMAĞA BAŞLAYIB

# HÜCUM QURBANI OLMUŞ SƏRNİŞİN TƏYYARƏLƏRİ



HAZIRLADI
RÜSTƏM QARAXANLI

**Mülki aviasiyanın əsası qoyulan gündən təqribən 20-dən çox sərnişin təyyarəsi raket, yaxud hərbi təyyarələrin hücumuna məruz qalıb. Sərnişin laynerlərinin vurulması əksər hallarda insan tələfatı ilə müşayiət olunub.**

AZAL-a məxsus "Embraer-190" sərnişin təyyarəsinin Rusiya səmasında kənar müdaxiləyə məruz qalması tarixdə ilk belə hal deyil. Mülki aviasiyanın əsası qoyulan gündən təqribən 20-dən çox sərnişin təyyarəsi raket, yaxud hərbi təyyarələrin hücumuna məruz qalıb. Sərnişin laynerlərinin vurulması əksər hallarda insan tələfatı ilə müşayiət olunub. İlk belə hadisə 1938-ci ildə qeydə alınsa da, iri tələfatlara yol açmış olaylar əsasən İkinci Dünya müharibəsindən sonrakı dövrə təsadüf edir.

Tarixdə yalnız bir dəfə - 1988-ci ildə Lokerbidə baş vermiş terror aktına görə Liviyaya qarşı BMT-nin və ABŞ-nin sanksiyaları tətbiq olunub. Bütün digər hallarda isə günahkar dövlətlər qurbanların ailələrinə maddi təzminat ödəyərək üzr istəməkdən belə boyun qaçırıblar. Bəziləri isə ümumiyyətlə, günahlarını boyunlarına almayıblar...







## SƏMADA "İDEOLOJI MÜBARİZƏ"

27 iyul 1955-ci ildə İsrailə məxsus London-Vyana-İstanbul-Təl-Əviv marşrutu ilə uçan "Lockheed L-049 Constellation" təyyarəsi səhvən Bolqarıstanın hava məkanına daxil olub və Yunanıstanla sərhəddə "MİQ-15" qırıcısının hücumuna məruz qalıb. 58 sərnişin və ekipaj üzvləri həlak olublar. Bolqarlar səhvlərini boyunlarına alıblar. Ancaq bildiriblər ki, İsrail təyyarəsi onların xəbərdarlığına məhəl qoymayıb deyə, belə sərt addım atmaq qərarına gəliblər. O vaxt Bolqarıstan Varşava blokunun üzvü, İsrail isə ABŞ-nin müttəfiqi olduğundan təyyarənin vurulması ciddi siyasi qalmaqala yol açıb. Səkkiz il sonra Bolqarıstan İsrailə 195 min dollar (indiki kursla 1,5 milyon dollar) miqdarında kompensasiya ödəməyə razılaşıb.

21 fevral 1973-cü ildə Tripolidən Qahirəyə uçan "Libyan Arab Airlines"ə məxsus "Boeing 727" Sinay yarımadasının üzərində İsrail hərbi təyyarələri tərəfindən vurulub. Ekipaj heyəti və 108 sərnişin həlak olub, beş nəfər sağ qalıb. İsrail hərəkətini onunla izah edib ki, mülki və hərbi təyyarələrin pilotları bir-birilərini anlamayıblar. Liviya təyyarəsi o zaman yanlışlıqla İsrailin ilhaq etdiyi Sinay üzərindən uçub, qum fırtınası şəraitində anlaşılmazlıq yaranıb. İsrailin bu hərəkətini BMT-nin strukturuna daxil olan Beynəlxalq Mülki Aviasiya Təşkilatı pisləyib, ancaq ABŞ veto hüququndan istifadə etdiyinə görə, Təhlükəsizlik Şurası Tel-Əvivə qarşı sanksiya qəbul edə bilməyib. Sonralar günahını boynuna alan İsrail həlak olanlara kompensasiya vermək istəyib, ancaq Liviya bununla razılaşmayıb. Kompensasiyanın qəbulu Liviyanın İsraili tanıması anlamına gələ bilərdi.

## FRANSA DA SƏRNİŞİN TƏYYARƏLƏRİNİ VURUR

1978-ci ildə Parisdən Seula uçan "Korean Air Lines"a məxsus təyyarə şimal qütbündə istiqamətini azaraq o vaxtkı SSRİ səmasına keçib. Dərhal onu bir neçə sovet qırıcısı izləyib və onlardan birinin açdığı atəş nəticəsində Koreyaya məxsus mülki təyyarə Kareliya ərazisində buz bağlamış gölə eniş edib. 2 nəfər ölüb, 13 nəfər yaralanıb. Sovetlər nəinki günahlarını etiraf ediblər, hətta Koreya tərəfinə yaralı sərnişinlərə tibbi köməkliyə görə 10 min dollar məbləğində hesab da təqdim ediblər. Təyyarənin kapitanı və şturmanı günahlarını boyunlarına alandan sonra əfv olunublar.

1980-ci ilin 27 iyununda İtaliyanın "Aerolinee Itavia" şirkətinə məxsus "McDonnell Douglas DC-9" təyyarəsinin



qəzaya uğraması nəticəsində 81 nəfər həlak olub. Hadisənin baş verdiyi vaxtda Liviya ilə NATO qüvvələri arasında döyüşlər getdiyindən ehtimal edilir ki, "Ustika üzərində qətliam"ın səbəbi hərbi əməliyyatlardır. Ancaq 2008-ci ildə məsələ yenidən aktuallaşdıqda 1980-ci ildə İtaliyanın baş naziri olmuş Françesko Kossiqa sərnişin təyyarəsinin Fransanın qırıcıları tərəfindən vurulduğunu bildirib. 2011-ci ildə Palermo məhkəməsinin qəbul etdiyi qərara əsasən, İtaliya Fransadan 100 milyon avro kompensasiya tələb edib.

## GECİKMİŞ ETİRAF

1983-cü ildə Nyu-Yorkdan Seula uçan daha bir Koreya təyyarəsi marşrutdan kənara çıxaraq SSRİ ərazisinə daxil olub və sovet qırıcıları tərəfindən vurulub. 269 sərnişin və ekipaj üzvləri həlak olub. Təyyarədə olan 16 ölkənin vətəndaşlarının qohumları SSRİ-yə qarşı məhkəmələrə müraciət etsələr də, Moskva günahını boynuna almayıb. Yalnız ittifaq dağılandan sonra - 1992-ci ildə Rusiyanın o vaxtkı prezidenti Boris Yeltsin təyyarənin vurulması barədə günahı etiraf edib.

İranla ABŞ arasındakı münasibətlərin gərgin dövründə - 1988-ci ildə baş vermiş bir təyyarə qəzası ziddiyətlərin lap sərtləşməsinə səbəb olsa da, sonda Vaşinqton həlak olanların ailələrinə kompensasiya ödəmək qərarı qəbul edib. Belə ki, İrana məxsus "Airbus 300" təyyarəsi Tehrandan Dubaya uçarkən Fars körfəzində ABŞ-yə məxsus "Vincennes" gəmisinin raket hücumuna məruz qalıb. 290 sərnişin və ekipaj həlak olub. Səkkiz il sonra Vaşinqton hər həlak olan şəxsə görə 300 min dollar (uşaqlara görə 150 min dollar; təyyarədə 66 azyaşlı olub) ödəməyə razılıq verib. Məsələ BMT TŞ-nin müzakirəsinə çıxarılsa da, böyük Buş "faktlar nə deyir desin, ABŞ üzr istəmək niyyətində deyil" söyləyib.

Elə həmin il Frankfurtdan London və Nyu-York üzərindən uçmaqla Detroitə gedən "Pan American World Airways"a məxsus "Boeing 747" təyyarəsi Şotlandiya səmasında partlayıb. Üç illik araşdırmadan sonra günahkar bilinən Liviyanın xüsusi xidmət orqanlarının əməkdaşı Əbdulbəsit əl-Meqrahi və "Libyan Arab Airlines"ın təhlükəsizlik xidmətinin rəhbəri Əl Əmin Həlif Fimah üçüncü ölkədə mühakimə olunmaq üçün Niderlanda təhvil veriliblər. Birinci ömürlük həbs cəzası alsa da, yeddi ildən sonra əfv olunub. Bir qədər sonra isə Fimah da azadlığa çıxıb. 2003-cü ildə Qəddafi həlak olan hər bir şəxsin ailəsinə Liviya üzərindəki sanksiyaların ləğvi şərtilə 10 milyon dollar ödəməyə razılığını bildirib. Liviya hökuməti toplam 2,7 milyard dollar kompensasiya ödəyib.



## "İNSAN SƏHVİ"

Sərnişin təyyarələrinə hücumlar heç də həmişə bilərəkdən edilmir. Məsələn, 2001-ci ildə Təl-Əvivdən Novosibirskə uçan "Tu-154" təyyarəsi Qara dəniz üzərində Ukrayna tərəfindən buraxılmış raketə hədəf olub. 78 nəfərin həlak olduğu bu insident Ukrayna ərazisində keçirilən hərbi təlimlərlə eyni vaxta təsadüf edib. Kiyev ölənlərin ailələrinə 15 milyon dollar dəyərində kompensasiya ödəməyə razılıq verib, ancaq hər hansı hüquqi məsuliyyətdən boyun qaçırıb. Təyyarənin məxsus olduğu "Sibir" şirkəti Avropa Məhkəməsinə müraciət edəcəyini bildirsə də, sonda bu qərarından daşınıb.

Bu, təlimlər zamanı istifadə edilən silahın təsadüfən sərnişin təyyarəsinə tuş gəlməsinin yeganə halı deyil. 1962-ci ildə SSRİ-yə məxsus "104A" təyyarəsi Xabarovsk-İrkutsk-Omsk-Moskva marşrutu ilə uçarkən Krasnoyarsk vilayətində qəzaya uğrayıb. Göyərtədə olan 84 nəfərin hamısı ölüb. Moskva çox ört-basdır etsə də, məlum olub ki, sərnişin layneri bu ərazidə dislokasiya olunan hərbi hissədən səhvən buraxılmış raketlə vurulub.





2014-cü ildə Ukraynanın şərqində gedən hərbi əməliyyatlar zamanı Amsterdamdan Kuala-Lumpura uçan və "Malayziya Hava Yolları"na məxsus sərnişin təyyarəsi hücuma məruz qalıb. 298 nəfər həlak olub. Ukrayna və Qərb hadisənin Rusiya tərəfindən "Buk" zenit-raket kompleksi ilə törədildiyini iddia etsələr də, o gündən bu yana Moskva hər hansı etirafda nəinki bulunmayıb, hətta təyyarəni Ukraynanın vurduğunu iddia edir. Rusiya tərəfi hesab edir ki, Ukrayna bunu sonra Moskvanın üstünə yıxsın deyə qəsdlə edib.

2020-ci ildə İraqdakı ABŞ hərbçilərinə raket zərbələri endirən İran cavab aksiyasından təlaşa düşərək səhvən Tehran aeroportundan qalxan Ukraynaya məxsus sərnişin laynerinə iki raket atəşi açıb. 176 nəfərin həlak olduğu hadisədə İran əvvəl günahı üzərindən atmağa çalışıb. Ancaq sonra baş verənləri "insan səhvi" kimi klassifikasiya edib. Günahkar hərbçilər bir ildən 13 ilədək müddətə həbsə məhkum ediliblər, həlak olanların ailələrinə kompensasiyalar ödənilib.

---

Baş redaktordan
İlham Quliyev



# Qəhrəmanlıq daha necə olur ki?

**Biz artıq ekstremal vəziyyətlərdə bir yumruq kimi birləşə bilirik. Belə anlarda peşəkarlarımız önə çıxır. Hiss edirik ki, sinəsini önə verib bizi müdafiə edən dövlətimiz var.**

AZAL-ın Aktauda qəzaya uğrayan sərnişin təyyarəsinin kapitanı İqor Kşnyakinin qızı atası ilə bağlı paylaşımında "Ata, sən mənim qəhrəmanımsan" yazıb. Əslində atası tək onun deyil, bütün Azərbaycanın qəhrəmanıdır. O, kənar müdaxiləyə məruz qalan təyyarəni xeyli müddət havada saxlamağı bacarıb, bəlkə də aviasiya tarixində bir ilkə imza ataraq qəzaya uğramış təyyarədəki 30-a yaxın sərnişinin həyatını xilas edə bilib. Öz həyatı bahasına olsa da... Qəhrəmanlıq daha necə olur ki?

## QƏHRƏMANLAR TƏKCƏ MÜHARİBƏLƏRDƏ OLMUR

Biz müharibədən yeni çıxmış ölkənin vətəndaşlarıyıq. Döyüş bölgəsində Vətən üçün canından keçən, ölümün üzərinə mahnı oxuya-oxuya gedən, sıldırım qayalara dırmanaraq şəhərlər azad edən qəhrəmanları görmüşük. Amma qəhrəmanlar təkcə müharibələrdə olmur. Düşdükləri ekstremal vəziyyətdə, ölümlə üz-üzə, göz-gözə qaldıqları anlarda belə, xidməti vəzifələrini ləyaqətlə həyata keçirən AZAL-ın ekipaj üzvləri də əsl qəhrəmanlardır. Təyyarə bələdçisi Hökumə Əliyevanın yerlə toqquşmaya dəqiqələr qala söylədiyi sözlər, sərnişinləri təsəlli etmək üçün işlətdiyi ifadələr adi insanın edə biləcəkləri deyil. İnsan ölümlə burun-buruna qaldığı dəqiqələrdə də "hər şey yaxşı olacaq" deyə bilirsə, bir neçə saniyəlik də olsa sərnişinlərə ürək-dirək verməyi bacarırsa, o, sözün əsl mənasında qəhrəmandır. Qəhrəmanlıq daha necə ola bilər ki?

## UZUN MÜDDƏT YADDAŞLARDA QALACAQLAR

Bəli, bu insanlar uzun müddət yaddaşlarda qalacaqlar. Haqlarında şeirlər, romanlar yazılacaq, filmlər çəkiləcək. Xeyli sayda gəncə nümunə olacaqlar. Hadisədə həlak olan pilotların və təyyarə bələdçisinin vida mərasimində ölkənin ali rəhbərliyinin də iştirak etməsi, II Fəxri Xiyabanda dəfn olunmaları da onların artıq qəhrəman kimi qəbul edildiklərinin bir təsdiqidir.

## HAMIMIZ ÜÇÜN ÇIXAN DƏRSLƏR

Bu hadisədən hamımız üçün çıxan dərslər var.... Yəqin yaralar qaysaq bağladıqca, daha ətraflı düşünmək imkanımız olacaq. İndilik isə əsas olan odur ki, biz artıq ekstremal vəziyyətlərdə bir yumruq kimi birləşə bilirik. Belə anlarda peşəkarlarımız önə çıxır. Belə situasiyalarda hiss edirik ki, sinəsini önə verib bizi müdafiə edən dövlətimiz var. Bütün bunları analiz edəndə içimizdəki kədəri cilovlayaraq "hər şeyin yaxşı olacağını" düşünmək olur. Çox çətin olsa da....

# İQTİSADİYYATIMIZA YENİ NƏFƏS GƏLƏCƏK

Ekspertlərin 2025-ci il üçün iqtisadi inkişaf proqnozları nikbindir. Gələn il yaşıl enerjiyə keçid sürətlənəcək, kənd təsərrüfatı inkişaf edəcək, manatın məzənnəsi sabit qalacaq, məşğulluq artacaq, əmlak bazarı canlanacaq.





ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

2024-cü il Azərbaycan üçün mühüm hadisələr və yeniliklərlə yadda qalıb. İqtisadi artım tempinin yüksəlməsi, qeyri-neft sektorunun inkişafı, investisiya fəallığının artması və müxtəlif sahələrdə dinamika ölkənin ümumi iqtisadi vəziyyətinə təsir edib. Bəs qarşıdan gələn 2025-ci il ölkəmiz üçün nə vəd edir?

İqtisadçı Eyyub Kərimli 2025-ci ilin ölkəmiz üçün bol iqtisadi qazanclar ili olacağı qənaətindədir: “2025-ci il üçün bizi həm dünya, həm də Azərbaycan iqtisadiyyatı ilə bağlı nikbin proqnozlar gözləyir. İstər xarici, istərsə də ölkədaxili maliyyə qurumlarının proqnozlarına görə, 2025-ci ildə iqtisadiyyatımızda 4-5 faiz artım gözlənilir. Orta əməkhaqqı və təqaüdlərin artımı da proqnozlaşdırılır. Manatın məzənnəsinin gələn il də sabit qalacağı ilə bağlı proqnozlar söyləyə bilərik. Çünki hazırda valyuta ehtiyatlarımız kifayət qədərdir. Gələcək dövr üçün bu ehtiyatlar daha da artacaq. Həmçinin təqaüd və əməkhaqlarının 11 faiz artımı onu deməyə əsas verir ki, ölkəmizdə makroiqtisadi göstəricilər sabit olacaq. Bunun nəticəsində müəyyən sahələrdə artımlar müşahidə ediləcək”.

## YAŞIL ENERJİYƏ KEÇİD SÜRƏTLƏNƏCƏK

E.Kərimlinin sözlərinə görə, gələn il üçün gözlənilən addımlardan biri iqtisadiyyatın transformasiyasıdır: “Yaşıl enerjiyə keçidin daha da sürətlənməsi gözlənilir. 2025-ci ildə bu istiqamətdə yatırılan investisiyalar artacaq. Beləliklə, yeni iş yerləri yaradılacaq. Yaşıl enerjiyə keçidlə texnoloji yeniliklər gözlənilir. Yeni ixtisaslaşmış kadrlar üçün iş yerlərinin sayı artacaq. Ölkəmizdə yüksək ixtisaslı kadr ehtiyacı yaranacaq”.

İqtisadçı düşünür ki, üzümüzə gələn il dünyada gedən siyasi proseslərin sabitləşməsi də baş verəcək: “Rusiya və Ukrayna müharibəsi sakitləşə bilər. Beləliklə, ölkələr iqtisadi cəhətdən inkişaf edəcək. Dünya iqtisadiyyatında sabitləşmə və müsbət iqtisadi dinamika müşahidə ediləcək. Bu proseslər ölkəmiz üçün də iqtisadi baxımdan faydalı olacaq”.

## ƏMLAK BAZARI CANLANACAQ

Daşınmaz əmlak bazarına gəldikdə isə, əmlak məsələləri üzrə ekspert Elnur Azadov bildirdi ki, bu bazar gələn il xeyli canlanacaq: “Son bir ildir daşınmaz əmlak sektorunda kəskin qiymət artımları dayanıb. 2025-ilin birinci yarısı üçün də bu tendensiya davam edəcək. Gələn ilin ikinci yarısında Bakıda tikinti şirkətlərinin aktivliyinin artacağı proqnozlaşdırılır. Bunun da səbəbi Bakının Baş planına əsasən, köhnə tikililərin sökülməsi, əvəzinə yeni çoxmənzilli binaların tikiləcək olmasıdır. Əmlak qiymətlərində bir az da stabilləşmə olacaq. Binalar tikildikcə, bazardakı mənzil qıtlığı da aradan qalxacaq. Qiymət artımlarında balans yaranacağı gözlənilir. Buna qədər qiymətlərdə təxminən 5-10 faiz bahalaşma müşahidə edilə bilər. İnşaat materiallarının qiymətində isə ciddi dəyişiklik gözlənilmir. Kirayə qiymətləri ilə bağlı isə hazırkı halda fikir söyləmək çox çətindir”.



Elnur Azadov

## QAZ HASİLATINDA ARTIM, İXRACINDA SABİTLİK GÖZLƏNİLİR

Enerji məsələləri üzrə ekspert Zəfər Vəliyev bildirdi ki, 2025-ci il üçün həm neft hasilatımız, həm də neft satışımızla bağlı pozitiv proqnozlar söyləmək çətindir: “Növbəti ildə neft qiymətləri barel hesabı ilə 70-75 dollar dəhlizində dəyişəcək. Azərbaycana məxsus Azeri Light və BTC Brent markalı ixrac neftinin qiymətləri Liviya, Nigeriyaya məxsus yüngül neft markalarının, eləcə də ABŞ-ya məxsus WTI markalı neftin Aralıq dənizi enerji bazarlarına daxil olacaq ixrac həcmlərindən asılı olacaq. Növbəti ildə Azərbaycanda neft hasilatında təbii azalma müşahidə ediləcək”.

Z.Vəliyevin fikrincə, 2025-ci ildə qlobal qaz bazarında baş verəcək dəyişikliklər, neft bazarlarından fərqli olacaq: “Belə ki, Rusiya qazının Ukrayna üzərindən tranzitini nəzərdə tutan sazişin 2025-ci ilin yanvar ayının 1-dən etibarən başa çatması qlobal qaz balansına mənfi təsir göstərəcək. Bu, həm Avropa, həm də Asiya qaz bazarlarında qiymət artımına səbəb olacaq. Növbəti ildə Azərbaycanda qaz hasilatında artım, qaz ixracında sabitlik müşahidə ediləcək”.

## QEYRİ-NEFT SEKTORUNUN İXRAC PAYI ARTACAQ



Eyyub Kərimli

İqtisadçı Eyyub Kərimli kənd təsərrüfatında baş verəcək yeniliklərə də toxundu: “Gələn il kənd təsərrüfatı məhsullarının idxal və ixrac əməliyyatlarında da artımlar gözlənilir. Xüsusən, qeyri-neft sektorunun ixracında artımlar olacağını söyləmək mümkündür. Çünki bu sahəyə diqqət ildən-ilə artır. Beləliklə, kənd təsərrüfatı sahəsi də inkişaf etmiş olacaq. Kənd təsərrüfatı sahəsində məşğulluğun səviyyəsi də artacaq. Bu da regionların inkişafına öz töhfəsini verəcək. Ölkəmizin nəqliyyat-logistika imkanları genişlənir. Bu, əlavə valyuta ehtiyatlarının yaradılmasına öz müsbət təsirlərini göstərəcək”.

E.Kərimli bildirdi ki, gələn il üçün iqtisadiyyatımızın əsas inkişafı işğaldan azad edilmiş ərazilərlə bağlı olacaq: “Hazırda Qarabağ iqtisadi regionunda məskunlaşma işləri həyata keçirilir. Bu proses gələn il də davam edəcək. Bu da sözsüz ki, ölkə iqtisadiyyatına güclü təsir göstərəcək. İqtisadiyyatımıza yeni nəfəs gələcək. Çünki həmin bölgələrdə yeni iş yerlərinin açılması, həm də yeni biznes mühitinin formalaşması ölkə iqtisadiyyatını aktivləşdirəcək”.



Zəfər Vəliyev

# TƏYYARƏ QORXUSU İLƏ NECƏ MÜBARİZƏ APARMALI?

**Təyyarə qorxusu yaş və cinsindən asılı olmayaraq, hər bir insanda rast gəlinə bilər. Əgər fobiyanız varsa, uçuşa fokuslanmaq əvəzinə, onu yemək servisi, film izləmək və maraqlı kitab oxumaq kimi kiçik hissələrə bölün. Ən əsası, çoxlu su için və səyahət zamanı rahat geyimlərdən istifadə edin.**



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

AZAL-a məxsus təyyarənin Qazaxıstanda qəzaya uğraması həm də insanlarda uçuş fobiyasının artmasına səbəb olub. Artıq sosial şəbəkələrdə hava nəqliyyatı ilə səyahət planlayan insanların narahatlıqlarını müşahidə etmək mümkündür. Hətta səyahətdən imtina edənlər də az deyil.

Bəs bu qorxunu necə dəf etmək olar? Təyyarə fobiyasına (aerofobiya) qalib gəlməyin yolu varmı?

Mütəxəssislər deyir ki, hər dörd nəfərdən biri təyyarə ilə uçmaqdan qorxur. Sözdə normal görünsə də, aerofobiya insanlarda ciddi şəkildə narahatlıq yaradır. Onlar bir çox hallarda səyahət etməkdən məhrum olur, hətta qohumlarını belə ziyarət edə bilmirlər. Amma qorxu dərəcəsindən asılı olmayaraq, bu fobiyaya qalib gəlmək mümkündür.

### RAHATLAŞDIRICI MUSİQİ DİNLƏMƏK, KİTAB OXUMAQ

Klinik psixoloq, psixoterapevt Rövşən Nəcəfov "Kaspi"yə açıqlamasında bildirdi ki, aerofobiya nəqliyyat vasitələrinin texniki təhlükəsizliyindən şübhə, qapalı mühit qorxusu (klaustrofobiya), yüksəklik qorxusu (akrofobiya) və nəzarəti itirmək qorxusundan qaynaqlana bilər: "Aerofobiyanın psixoloji səbəbləri müəyyən edilərkən əvvəlki travmatik təcrübələr, medianın qəzalar haqqında verdiyi xəbərlər, ailə və dostların paylaşdığı mənfi təcrübələrin təsir etdiyi müşahidə olunur. İnsanlar uçuşa nəzarət edə bilmədikləri üçün stres və narahatlıq keçirirlər. Bəzi insanlarda isə bu fobiya özünü fizioloji səbəblərlə büruzə verir. Belə insanların təyyarədə təzyiq problemləri yaranır və hündürlükdə nəfəs alma çətinliyi yaşayırlar".

Psixoloq deyir ki, insanlarda stres və narahatlığı aradan qaldırmaq üçün təyyarələrin təhlükəsizliyi haqqında məlumat verilməlidir: "Təyyarə dünyada ən təhlükəsiz nəqliyyat vasitələrindən biri hesab olunur. Digər nəqliyyat vasitələri ilə müqayisədə təyyarə qəzaları çox nadir hallarda baş verir. Simulyasiya vasitəsilə uçuş təcrübəsi əldə etmək qorxunun azalmasına kömək edə bilər. Uçuş zamanı heyətlə ünsiyyət qurmaq, onların peşəkarlığını və işin təhlükəsizliyini hiss etməyə kömək edir. Rahatlaşdırıcı musiqi dinləmək və ya maraqlı kitab oxumaq diqqəti başqa istiqamətə çəkə bilər".

### MÜVƏQQƏTİ HƏLL YOLU

Psixoloji dəstək isə qorxuya səbəb olan düşüncələrin dəyişdirilməsinə kömək edir: "Fərdi yanaşma ilə şəxsin fobiyası və psixoloji tarixi öyrənilərək uyğun prosedurlar reallaşdırılır. Aerofobiya və digər buna bənzər fobiyalardan əziyyət çəkən şəxslər psixoterapiya almaqla qorxunun səbəblərini anlamağı və onu necə idarə etməyi öyrənirlər. Dərin nəfəs tex-nikaları ilə stres səviyyəsini azaldaraq insanın sakitləşməsinə kömək etmək olar. Ehtiyac yarandığı halda həkim-psixiatr tövsiyəsi ilə uçuş zamanı sakitləşdirici və ya narahatlıq əleyhinə dərman qəbul etmək müvəqqəti həll yolu ola bilər".



Rövşən Nəcəfov

### ON BİR MİLYONDA BİR

Bu fobiya ilə mübarizədə psixoloqların və insanların tutunduğu əsas məsələ təyyarənin ən təhlükəsiz nəqliyyat vasitəsi hesab edilməsidir. Statistikaya görə, təyyarə qəzasında ölmək şansınız 11 milyonda birdir. Uçuş zamanı hər şeyin həqiqətən pis getmə ehtimalı milyonda birdir. İnkişaf etmiş bir ölkəyə uçarkən təyyarə qəzasında ölmək şansınız 30 milyonda birdir. Çünki hava nəqliyyatı çox ciddi beynəlxalq qaydalar və standartlarla idarə olunur. Təyyarələr, pilotlar və hava yolları şirkətləri müntəzəm yoxlamalardan və sertifikasiyadan keçir. Aviasiya sənayesində texniki nasazlıqlar və təhlükəsizlik pozuntuları minimuma endirilir. Pilotlar uzun və ciddi təlim proseslərindən keçirlər. Onlar yüksək peşəkarlıq tələb edən fövqəladə vəziyyətlərdə necə davranmağı öyrənirlər. Uçuş idarəetmə qrupları da uçuş təhlükəsizliyini təmin etmək üçün davamlı işləyirlər. Bundan əlavə, təyyarələr ən müasir texnologiyalarla təchiz olunub və çox vaxt avtomatlaşdırılmış sistemlərdən istifadə edilir.

### Ətrafında qorxan varsa, sən də qorxacaqsan

25 illik fobiya ilə mübarizə təcrübəsi olan psixoloq Patricia Furness-Smith "British Airways"də aerofobiya ilə bağlı "inamla uçun" kurslarını təşkil edir. Psixoloq deyir ki, qorxduğumuz zaman beynimizi emosiyalarımız idarə edir və məntiqimiz kənarda qalır. Bu məqamda uçmağın ən təhlükəsiz nəqliyyat vasitəsi olduğu ilə bağlı statistikalar da beyinə təsir etmir. Psixoloq deyir ki, təyyarə fobiyasını yaradan mühüm amillərdən biri valideynlərin övladlarını qorumaq instinkti və təyyarənin hava boşluğuna (türbülans) düş-məsidir. Valideynin övladını uçuşa hazırlayarkən keçirdiyi narahatlıq övladına təsir edir və qorxmağa başlayır. Məsələn, bir dəfə təyyarə ilə ana ilə bala səyahət edirdi. Ana tez-tez övladına deyirdi ki, qızım qorxma, tez çatacağıq. Ana dua etməyə başladı ki, "Allahım, sən bizi qoru". Bu sosial öyrənmədir, ətrafında qorxan varsa, avtomatik sən də qorxacaqsan. Türbülansa gəldikdə isə, hər bir təyyarə hava boşluğuna asanlıqla tab gətirə bilir.

Psixoloq vurğulayır ki, təyyarə fobiyasının əsasında insanların ümumi qorxuları dayanır: "Təyyarə qorxusunu gücləndirən faktorların arasında klaustrofobiya (qapalı məkanlar), akrofobiya (hündürlük), agorafobiya (yadlaşma), misofobiya (mikroblar), astrofobiya (ildırım və fırtına), sosial fobiya (məsələn, ictimai yerdə yemək) və emetofobiya (qusma qorxusu) ola bilər. Mümkün qədər erkən hərəkətə keçmək vacibdir, çünki üzərində işlənilməyən hər bir qorxu kök salır və həyatınızın digər sahələrinə də təsir edir. Təyyarə qorxusu yaş və cinsindən asılı olmayaraq, hər bir insanda rast gəlinə bilər. Əgər fobiyanız varsa, uçuşa fokuslanmaq əvəzinə, onu yemək servisi, film izləmək və maraqlı bir kitab oxumaq kimi kiçik hissələrə bölməyi tövsiyə edirəm. Ən əsası, çoxlu su için və səyahət zamanı rahat geyimlərdən istifadə edin. Heç vaxt qorxularınıza təslim olmayın, çünki onlar həyatınızı oğurlayar".

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
Global Media Group

Baş redaktor
İlham Quliyev

Redaksiya
Baş redaktorun müavini - Azad Əliyev
Müxbirlər – Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı
Müəlliflər – Azər Nuriyev, Rüstəm Qaraxanlı, Xanım Aydın, Aqşin Kərimov, Sevinc Abbasova, Faiq Tahirov
Korrektor – Vüsal Əliyev

Texniki şöbə
Kreativ direktor – Murad Arbay
Dizaynerlər
Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli
Yayım və satış meneceri
Vadim Manafov

Ünvan
Bakı, Səməd Vurğun 34, AF Mall
Telefon: (012) 525 03 31
kaspiqazeti@kaspi.az

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 3069
Tiraj: 2350
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# BAYRAMQABAĞI BAHALAŞMAYACAQ, AMMA...

Yeni ilə son günlər qalmış ölkəyə idxal edilən düyü 14 faiz bahalaşıb. Lakin hazırda marketlərdə qiymətlərdə heç bir dəyişiklik müşahidə edilmir. Ekspertlər bahalaşmanı Novruz Bayramı ərəfəsində proqnozlaşdırırlar.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

2024-cü ilin yanvar-noyabr aylarında Azərbaycana 62 milyon 757 min ABŞ dolları dəyərində 60 min 464 ton düyü idxal olunub. Dövlət Gömrük Komitəsi xəbər verir ki, bu göstəricinin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə həcm baxımından 18.7 faiz və ya 9505 ton, dəyər baxımından isə 35.4 faiz və ya 16 milyon 378 min dollar çoxdur. 2023-ci ilin yanvar-noyabr aylarında Azərbaycana 36 milyon 685 min ABŞ dolları dəyərində 41 min 38 ton düyü gətirilib. Qeyd edək ki, hesabat dövründə Azərbaycana gətirilən düyünün hər tonunun orta idxal qiyməti 14 faiz artaraq 1038 ABŞ dollarına bərabər olub. Bu göstərici ötən ilin müvafiq dövründə 910 ABŞ dolları təşkil edib.

Qarşıdan Yeni il gəlir. İnsanlar artıq bayram üçün alış-veriş etməyə başlayıb. Düyünün idxal qiymətinin bahalaşması marketlərdəki qiymətə necə təsir edib?

**"DÜYÜNÜN ORTA QİYMƏTİ 5 MANAT 50 QƏPİKDƏN BAŞLAYIR"**

İqtisadçı Günay Hüseynovanın sözlərinə görə, düyünün bazar qiymətində artım yox, əksinə, azalma müşahidə edilir: "Hər bayramqabağı digər qida məhsulları kimi düyüyə də tələbat artır. 14 faizlik artım idxal edilən məhsulun yalnız bir tonuna şamil olunacaq. Bu səbəbdən artımın vətəndaşın büdcəsinə o qədər də təsir edəcəyini düşün-mürəm. Düyünün orta qiyməti 5 manat 50 qəpikdən başlayır. Bu sahədə digər qida məhsullarından fərqli olaraq, işbazların qiymət artımı yoxdur. Əksinə, endirimli qiymətlər mövcuddur. Bayram ərəfəsi tələbat olduğu üçün sahibkarlar satış həcmindən qazanır".



Günay Hüseynova

**"NOVRUZ BAYRAMINDA QİYMƏTLƏR DƏYİŞƏCƏK"**

G.Hüseynovanın fikrincə, hazırda qiymətlərdə artım müşahidə edilməsə də, bayramdan sonra cüzi bahalaşma ola bilər: "Bir kiloqram üçün artım 55-60 qəpik gözlənilir. Novruz Bayramı ərəfəsində alıcı artıq həmin məhsulu yeni qiymətlərlə alacaq. Sahibkarın bayramqabağı kampaniyası və ya hər hansı endirimi də ola bilər. Bu səbəbdən konkret rəqəm demək olmur. Dünyada gedən proseslər, ölkələrin iqtisadi vəziyyəti, inflyasiya, iqlim kimi faktorlar qiymətə təsir edir".

İqtisadçı bildirdi ki, xarici valyutanın məzənnəsi sabit qalsa da, sahibkar üçün bu vəziyyət fərqlidir: "Bir milyon manatlıq məhsula 140.000 manat artıq vəsait ödəyir. Qiyməti artırmağa məcburdur. Qiymətləri tənzimləmək üçün ilk növbədə yerli istehsala yönəlib idxal məhsulunu bazardan çıxarmaq, qısa müddətdə mümkün olmadıqda, güzəştli idxal gömrük rüsumları ilə ölkəyə daxil etmək lazımdır. Lakin düyü yüksək tələbat olmayan məhsul olduğu üçün hər iki seçim hazırda gözlə-nilmir".





**"Qiymətin sabitləşməsi üçün tədbirlər görülür"**

İqtisadçı Rauf Qarayev isə dedi ki, daxili bazarımızın böyük hissəsini ixrac məhsulları tutur: "Düyü istehsalımız tələbatı ödəmədiyindən digər ölkələrdən düyü idxal etməyə məcburuq. Pakistan düyüsü ilə bağlı Nazirlər Kabinetinin qərarı 2022-ci ilin dekabrından qüvvəyə minib və 31 dekabr 2027-ci il tarixinədək idxal gömrük rüsumundan azad edilir. Pakistan düyüsünün gömrük rüsumundan azad edilməsi ilə oradan gətirilən düyü miqdarı artıb".

R.Qarayev əgər qiymətlərdə süni artımlar olarsa, atılmalı vacib addımlardan da bəhs etdi: "Bayram ilə əlaqədar düyünün qiymətinin o qədər də artacağını düşünmürəm. Çünki düyüyə olan tələbatın artması daha çox Novruz Bayramına təsadüf edir. Həmin bayramda çərşənbələr zamanı insanlar plov bişirir. Həmçinin ölkəmizin düyüyə olan tələbatı digər qonşu ölkələrlə müqayisə etdikdə xeyli azdır. İdxal qiymətlərinin yüksəlməsi də düyü qiymətlərinin artımına səbəb olmayacaq. Çünki qiymətin sabitləşməsi üçün tədbirlər görülür. Əgər süni qiymət artımları olarsa, bunun qarşısının alınması üçün digər ölkələrdən gətirilən düyülər də vergi və gömrük rüsumlarından azad edilə bilər. Bu da effekt verməzsə, düyü istehsalımızın artırılması üçün tədbirlərin görülməsinə ehtiyac yaranacaq".

**"YERLİ DÜYÜ TƏLƏBATI ÖDƏMİR, AMMA XARİCƏ GÖNDƏRİLİR"**

İqtisadçı bildirdi ki, Azərbaycanda da düyü istehsal edilir. Lakin qiyməti baha olduğundan daha çox xaricə ixrac edilir: "Azərbaycan düyüsü idxal edilənlərdən qat-qat keyfiyyətlidir. Bizdə düyünün yetişdirilməsi baha başa gəlir. Həmçinin ildə bir dəfə əkilir. Maya dəyərinin yüksək olması da qiymətini qaldırır. Ölkəmizdə əkilən düyünün ixracı həyata keçirilir, Rusiya bazarlarına çıxarılır. Yerli düyünün qiyməti baha olduğundan insanların seçimi əsasən xarici məhsullar olur".

R.Qarayev düşünür ki, bazarda yerli məhsula tələbat olmasına da çalışmaq lazımdır: "Yaxşı olardı ki, məhsulumuz yerli tələbatımızı tam ödədikdən sonra xaricə getsin. Lakin bizim fermerlərimiz məhsullarını daxilə yox, xaricə çıxarmağa daha maraqlıdırlar. Ümumiyyətlə, maya dəyəri daha ucuz başa gələn məhsulların yetişdirilməsinə çalışmaq lazımdır".



Rauf Qarayev

# DƏYİŞİKLİKLƏR VƏ YENİ İMKANLAR İLİ

## NECƏ GEYİNƏK?

İlan ili böyümək və özünü ifadə etmək imkanları olan hər kəs üçün ilhamla dolu günlər vəd edir. Amma bu ildə həmişə qıtlıq müşahidə olunur. Gələn il də bahalıq, devalvasiyalar, iqtisadi böhranlar ola bilər.

XANIM AYDIN

Qarşıdan gələn 2025-ci il Şərq təqviminə görə yaşıl taxta (ağac) İlan ilidir. Çində ilanlara kiçik əjdahalar deyilir. Əsasən, müdriklik, zəriflik və çevrilmə ilə əlaqələndirilir. İlan ili tez-tez dəyişikliklər və yeni imkanlar ili hesab olunur ki, bu da onu digər illərdən fərqli edir. Şərq mədəniyyətinə və ənənələrinə əsasən, İlan ili ondan düzgün istifadə edənlərin ilidir.

### İLAN ETİBAR VƏ SƏMİMİYYƏTƏ ÜSTÜNLÜK VERİR

Yaşıl taxta ilan müdrik, dərrakəli və xarizmatik hesab olunur. Bu işarə altında doğulan insanlar çətin vəziyyətlərdə tez-tez soyuqqanlılıq və ehtiyatlılıq göstərirlər. Bir element kimi ağac ilan rahatlıq keyfiyyəti və böyümə arzusu gətirir. Yaşıl rəng yenilənməni, həyatı və təbiətlə harmoniyanı simvollaşdırır. İlan yaradıcılığı çox sevir və ətrafdakılara ilham verir. İnsanlara intuisiya və düşüncə ilə orijinal həll yollarını tapmağa kömək edir. Bundan başqa, yaşıl taxta ilan bilik və ağlı qiymətləndirir, özünü daim inkişaf etdirməyə çalışır. Dəyişən şərtlərə asanlıqla uyğunlaşmaya imkan verən yeni fikir və imkanlara açıqdır.

Şəxsi münasibətlərə gəlincə, ilan etibar və səmimiyyətə üstünlük verir. İlan yaxşı bir dost və ortaq ola bilər, ancaq bəzən qısqanclığa meyl göstərir. Beləliklə, yaşıl taxta ilan böyümək və özünü ifadə etmək imkanları və irəliləməyə hazır olan hər kəs üçün ilhamla dolu bir il vəd edir.

### SÜFRƏMİZİ HANSI TƏAMLAR BƏZƏMƏLİDİR?

Şərqdə yeni il süfrəsi üçün uğuru simvolizə edən və xüsusi əhəmiyyət kəsb edən yeməklər hazırlamaq adətdir. Məsələn, Yeni il süfrəsinə buğda bişirilmiş balıq verilir. "Balıq" Çin dilində "artıq" sözü ilə uyğundur. İlin sonundakı artıqlıq, bir insanın növbəti ildə daha çox qazana biləcəyi deməkdir. "Sazan əjdaha qapısından atladı" atalar sözü də uğurla əlaqələndirilir ki, bu da əjdahadan sonra gələn İlan ilində uğur qazanmaq və statusu artırmaq deməkdir. Bundan başqa, İlan ilini toyuqdan hazırlanan yeməklərlə də qarşılamaq yaxşı hesab edilir.

### İLAN İLİNDƏ NƏ HƏDİYYƏ ETMƏK LAZIMDIR?

İlan ilində içində pul olan qırmızı zərf vermək yaxşı adətdir. Bundan başqa, ilin simvolu olan oyuncaq, həmçinin çay, gözəl qablar və şirniyyatlar hədiyyə etmək də uğurlu sayılır. Amma qara və ağ çiçəklər, pulqabı, saat, güzgü, ayaqqabı hədiyyə etmək məsləhət deyil. Çinlilər inanırlar ki, insan başqasına pulqabı verməklə öz sərvətini ona ötürür. Güzgü xəyalları cəlb edir və "saat vermək" ifadəsi "cənazədə iştirak etmək" ilə uyğundur. Ona görə qədim Şərqdə İlan ili astanasında bu cür hədiyyələr pis əlamət olduğundan məqbul sayılmır.



Yeni ildə qırmızı rəngli geyimlərə üstünlük verilir. Bu rəng güc və firavanlığı təmsil edir. İlan ilində doğulanlar isə sarı rəngli geyimə üstünlük versələr, onlar üçün yaxşı olar. Çünki bu rəng onlara bol uğur gətirir. Qızıl və qəhvəyi rəngli paltar geyinilməsi pis hesab olunur. İnanclara görə, bu rənglər ilanlar üçün bədbəxtlik gətirir.

### "İLAN İLİ YANVARIN 29-DA BAŞLAYIR"

Astroloq Səbuhi Rəhimli deyir ki, 31 dekabrdan 1 yanvara keçəndə Miladi təqvimi ilə il dəyişir, yenilənir: "Yeni 2024-cü il bitir, 2025-ci il başlayır. Lakin astronomik cəhətdən Əjdaha ili estafeti İlan ilinə 29 yanvar 2025-ci ildə Bakı vaxtı ilə 16:35-də ötürəcək. Bu il 16 fevral 2026-cı ilə qədər davam edəcək. İlan ili dünyada siyasi il hesab olunur. Müşahidələr bunu göstərir ki, bu illərdə heç vaxt böyük müharibələr olmayıb. Daha çox ölkədaxili, məhəllədaxili kiçik həcmli konfliktlər olub. Bunlar əsasən ilin ikinci yarısında müşahidə olunur. Çünki ilin birinci yarısında obrazlı desək, ilan özündən qabaq əjdahanın törətdiyi yanğınları söndürməklə məşğuldur. Beləliklə, İlan ili müharibə ili deyil, əksinə, müharibələrin bitdiyi ildir. Böyük təbii fəlakətlər, o cümlədən zəlzələ, fırtına, qasırğa kimi dağıdıcı hadisələr İlan ilinə xarakterik deyil".

### "QITLIQ, QISQANCLIQ, BOŞANMALAR İLİ"

"İlan ili həmişə qıtlıqla müşahidə olunub. Bahalıq, devalvasiyalar, iqtisadi krizis ilidir. Əsas mənfisi budur. Qənaətcil, ehtiyatlı insanlar bu prosesdən uduşlu çıxacaqlar. Təəssüf ki, ilan həm də qısqanclıq, şübhələr ilidir. Müşahidələr göstərir ki, bu illərdə boşanmalar daha çox olur. Bu il xüsusən şübhə və qısqanclıqdan uzaq olmaq məsləhət görülür", - deyə astroloq bildirir.

### İLANIN DOSTU KİM, DÜŞMƏNİ KİMDİR?

Astroloq qeyd edir ki, Çin təqvimində ilan, xoruz və öküz dost illərdir: "Lakin qaban (donuz) ili İlan iliylə düşməndir. Bu, Çin təqviminə əsasən belədir. Elmi cəhətdən isə hər bir ilin öz oyun qaydaları, kodları var. Planları və sirlərini açmayan, şübhələrdən uzaq, öz işi ilə məşğul olan, yəni bildiyi, bacardığı işlə məşğul hər kəs bu il qazanclı olacaq, uğur qazanacaq. Bəzən deyirlər ki, öz ilim özümə düşmədi. Xeyr, belə şey yoxdur. Deməli, həmin adam öz ilinin qaydalarına, kodlarına uyğun yaşamayıb, ona görə də onun üçün uğursuz olub.

İlin aparıcı planeti Merkuridir. Hər bir planetin himayəsində əsasən iki bürc var və Merkurinin də himayəsindəkilər əkizlər və qız bürcləridir. Biri hava, biri torpaq ünsürüdür. Deməli, hava və torpaq ünsürlü bürclər bu il daha şanslı olacaqlar. Hava ünsürləri tərəzi, əkizlər, dolça (sutökən), torpaq ünsürləri - buğa, qız, oğlaq digərlərindən bir addım öndə olacaqlar".

# "BEŞ İLDİR Kİ, ÖZÜMƏ "DUR!" DEYİRƏM"

"İşdə məhəbbət macərası"nın Lyudmilası Alisa Freyndlix 90 yaşını qeyd edir. Aktrisanın 70 ildir davam edən yaradıcılığına 50-dən çox film və serial daxil olub.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az



Kino həvəskarları onu "İşdə məhəbbət macərası" filmindən yaxşı tanıyırlar. Eldar Ryazanovun bu məşhur filmi sovet dövründən bayramları, televiziya efirlərini bəzəyir. Bir vaxtlar bizi "təbiətdə pis hava yoxdur", - deyə inandıran ən saf sopranonu kim sevmir? Lakin Alisa Freyndlix nəinki "İşdə məhəbbət macərası"nda oxudu, o, filmdə sovet kinosunun bütün tarixində ən təsirli təsvirlərdən birini yaratdı. Onun ixtiyarında yalnız kinorejissor Vladimir Naxabtsevin kamerası və vaxtaşırı aldığı fransız "Lancome"dan kompakt-pudrası vardı. Amma bu, Alisanın çəkildiyi kadrların mütləq xoşbəxtlik və solmayan gözəlliklə parlaması üçün kifayət idi.

Daha sonra aktrisa müsahibələrində izah etdi ki, ümumiyyətlə, o, çox qeyri-fotogenikdir, bütün operatorlar onunla çox əziyyət çəkirlər. Belə çıxır ki, kinoda Freyndlixin "sehrli nöqtəsi" var, sadəcə onu tapmağı bacarmaq lazımdır.

**90 YAŞINDA AKTRİSALIQ**

Alisa Freyndlix bu günlərdə 90 yaşını qeyd edir. Rusiya Prezidenti Vladimir Putinin fərmanı ilə aktrisa Birinci dərəcəli Vətənə Xidmət Ordeni ilə təltif edilib. "90 yaşında aktrisalıqla məşğul olmaq uyğunsuzdur, amma səhnə ilə vidalaşmaq da inanılmaz dərəcədə çətindir", - deyir aktrisa.

Böyük aktrisa nadir hallarda müsahibə verir. Amma 90 illiyi ilə bağlı eksklüziv müsahibəyə razılıq verib. Şəxsi həyatı haqqında danışmağı sevmir. Bununla belə onun ilk əri - aktyor və dramaturq Vladimir Karasevlə cəmi üç il birlikdə yaşadığını hamı bilir. İkinci əri - Lensovet Teatrının bədii rəhbəri İqor Vladimirovla evliliyi səs-küylü boşanma ilə başa çatıb. Aktrisanın üçüncü seçimi - aktyor və rəssam Yuri Solovey 14 illik evliliyi dövründə heç vaxt "sadəcə ulduzun əri" roluna alışa bilməyib.

**ACLIQ, QORXU VƏ ARZULARLA DOLU İLLƏR**

"Həyatımın ilk illəri işıq, hərarət və sevinclə dolu olub. Sonra müharibə başladı. Leninqradın mühasirəsinin dəhşətli dövründə anam və nənəm Şarlotta Fridrixovna mənim yanımda qaldılar. Mənim üçün ən böyük sevinc yuxudan duranda idi - kiçik boşqabda həmişə günəbaxan jmıxı olurdu. Çörək kiçik hissələrlə və saata uyğun olaraq verilirdi. Saata baxıb, əqrəblərin nə vaxt məlum rəqəmin üstündə dayanacağını səbirsizliklə gözləyirdim. Yuyunmaq üçün xizəkdə qar gətirirdik. Nənəm tərəfindən qurulan ciddi nizam mənim sağ qalmağıma kömək etdi. O günlərin çətin, qorxulu, uşaqlıq təəssüratları yaddaşımda qaldı. Biz blokadadan sağ çıxanların təbəssümə xüsusi ehtiyacı var idi...", - deyə aktrisa xatırlayır.

Mühasirə illərində Alisanın öz arzusunun reallaşacağına inamı sönmüşdü. Amma ailəsi istəməsə belə, ilk cəhdində Leninqrad Teatr İnstitutuna daxil oldu. Əvvəlcə müəllimlər, sonra tamaşaçılar ona inandı. Lensovet Teatrının əfsanəvi "Balaca və Karlson" tamaşası həm uşaqların, həm də böyüklərin ürəyini fəth etdi. Alisa Freyndlixi Kid, Anatoli Ravikoviçi isə Karlson rolunda görmək üçün başqa şəhərlərdən Leninqrada gəlirdilər...

O vaxtdan aktrisanın 70 ildən artıq davam edən səhnə və kino həyatı başladı. Ümumilikdə, Alisa 50-dən çox film və serialda rol alıb. Aktrisa hələ də Tovstonoqov adına Rusiya Böyük Dram Teatrının tamaşalarında iştirak edir. Oleq Basilaşvili ilə birlikdə "Bir yay" tamaşasında səhnəyə çıxır. Alisa etiraf edib: "Artıq beş ildir ki, özümə "dur!" deyirəm. Səhnədə peşəyə və həyatın cəlbediciliyinə, tamaşaçılarla ünsiyyətə, onların enerjisi ilə qidalanmaya aşiq olmamaq inanılmaz dərəcədə çətindir, bu, nəfəsalma kimi lazımdır. Amma başa düşürəm ki, 90 yaşında aktyorluqla məşğul olmaq da düzgün deyil. Mən bunun fərqindəyəm, ancaq bu enerjidən də ayrıla bilmərəm. Düşünürəm ki, tamaşaçılar mənimlə yaxşıca ayrılacaq və bunu başa düşəcəklər".





## Kənddəki sakit həyat

Alisa Freyndlixlə şəhərdə də rastlaşmaq olar, baxmayaraq ki, onu tanımaq çətindir, çox dəyişib. Aktrisa sadə geyinir və diqqəti cəlb etməməyə çalışır. Qonşular isə onu evinin yaxınlığındakı supermarketdə tez-tez görürlər. İnsanların onunla selfi çəkdirməyi xahiş etməsinə nifrət edir. Bu səbəbdən şəhərdə az görünməyə çalışır.

Aktrisa vaxtının çox hissəsini Komarovodakı bağ evində keçirir. Bu, bütün sovet elitasının - şairlərin, yazıçıların, akademiklərin, hərbçilərin yaşadığı unikal bağ kəndidir. Freyndlix bir neçə il əvvəl Sankt-Peterburqun fəxri sakini olanda meşə yaxınlığında torpaq sahəsi alıb və orada Skandinaviya üslubunda sadə bir ev tikib. Kənd kiçikdir, hamı bir-birini tanıyır, amma qonşular aktrisanı narahat etməməyə çalışırlar. Freyndlix sakit, demək olar ki, təkbaşına yaşayır. Hətta belə gözəl bir tarixə - 90 illiyinə - Vaqanova adına Rus Balet Akademiyasının rektoru Nikolay Tsiskaridzeyə yalnız bir müsahibə verməyə razılaşıb. "Komarovo əvvəllər mehriban kənd olub: hamı bir-birini ziyarət etməyə gedir, böyük dəstələrlə öz bağlarına toplaşırdılar. İndi bu ənənə sıradan çıxır...", - deyə gileylənib. Amma bu yaxınlarda kənd sakinləri üçün möcüzə baş verib: aktrisa yerli Kellomyaki-Komarovo muzeyində görünərək qonşularını təəccübləndirib. Burada kəndin tanınmış sakinlərinin əşyaları toplanır. Alisa Freieyndlix şəxsi əşyaları və fotoşəkillərini də gətirib, pərəstişkarları ilə görüş keçirib. Sərgiyə bir neçə əşya da bağışlayıb.

**SÜLH ARZUSU**

Alisanın qızı Varvara bəzən filmlərdə rol alır və anası ilə eyni tamaşada oynayır. Aktrisanın iki nəvəsi və üç nəticəsi var. Nəvəsi Nikita məşhur prodüserdir. "Həyatda hər şeyiniz var. Başqa nə istəyirsiniz" sualına Alisa Freyndlix "Sülh. Mənə elə gəlir ki, hazırda çox gərgin həyat sürürəm...", - deyə cavab verib.



# ÖZÜ HAQQINDA MİF YARADAN ŞAİR



Yaddaşlarda sevgi şairi kimi qalan Nüsrət Kəsəmənli çətin uşaqlıq yaşamış, yaxşı dostlar qazanmış bir insan idi. Dostları onu indi də işıqlı xatirələri ilə yada salırlar.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

“Nüsrət sevgi şairi idi. XX yüzilliyin sonuna doğru saf sevginin bayağılaşdığı, bir sıra yabançı yaşam şəkillərinin həyatımıza soxulduğu, əsil məhəbbət haqqında yazmağın, sevgi etiraflarının arxaik göründüyü bir çağda Nüsrət bəzən hətta uşaq sadəlövhlüyü təsiri bağışlayan, lakin səmimiyyətilə inandıran sevgi şeirləriylə ortaya çıxdı...” Xalq Şairi Sabir Rüstəmxanlının yaxın dostu Nüsrət Kəsəmənli haqqında dediyi bu fikirlər doğum günü ərəfəsində xatırladığımız mərhum şairin yaradıcılığı haqqında ən səmimi xatirələr oldu.

## ÜRƏYİ SEVGİ VƏ XEYİRXAHLIQLA DOLU GƏNC

“Mən ondan yarım il böyük idim və bu kiçik “böyüklükdən” imtiyaz kimi geninə-boluna istifadə edir, məsələlərin həllində bu bir neçə aylıq fərqdən yapışırdım. Ancaq məncə, uzun dostluğumuz ərzində elə bir ciddi fikir toqquşmamız olmamışdı”, - deyə Sabir Rüstəmxanlı xatırlayır: “Nüsrət Kəsəmənli boylu-buxunlu, ötkəm, gülərüz, ömrün çətinliklərinə mərdi-mərdanə sinə gərən, etibarlı, sözü üzə deyən, xırdaçılığı sevməyən, ürəyi sevgiylə və xeyirxahlıqla dolu bir gənc idi. Bakıya bizdən sonra gəlmişdi və elə ilk görüşümüzdən girişsiz-müqəddiməsiz bir-birimizə ürək qızdırmışdıq. Mənə elə gəlirdi, biz elə uşaqlıqdan tanışıq. Bakıya gətirən əziyyətli, ehtiyac dolu yollarda həmişə yanaşı olmuşuq. Bunun çox sadə bir səbəbi vardı: ilk şeirlərimizin çoxu oxşar yolların və talelərin, bənzər sevgi və ayrılıqların, doğma ruhların ifadəsiydi. Bizdən öncə şeirlərimiz yaxınlaşmışdı, onları dinləyəndən sonra təqdimata, keçmişin və kimliyin haqqında əlavə bilgiyə ehtiyac qalmır. Elə bu ruh doğmalığı hiss olunmadan Çingiz Əlioğlunu, Nüsrət Kəsəmənlini və məni yaxınlaşdırmışdı, aramızda uzun illər davam edən, ədəbi mühitimiz üçün nadir bir dostluq nümunəsi yaranmışdı. Biz xaraktercə fərqliydik, ancaq dostluğumuzun bir səbəbi də bu müxtəlif xarakterlərin bir-birini anlamasıydı”.

S.Rüstəmxanlı davam edir: “Nüsrət Kəsəmənli toplumda itib-batan adam deyildi, onu dost da görürdü, düşmən də. Elə ilk görüşdən yaddaşlara həkk olunurdu. Şeirləri də beləydi, ilk oxunuşdan oxucu qəlbində yer qazanırdı. Dözümlüydü, ancaq qəfildən tufan qoparmağı da vardı. Ədəbi taleyi ona uşaqlıq taleyini unutdurmadı, Bakı sevgisi Ağstafanın “ata-ana sevgisizliyinin”, “anları coraba toxuyan”, “yumaq açıldıqca bükülən” nənənin boynuna dolanmaq üçün açılan qollarının yerini doldurmadı. Bu dərdlər şeirə keçdikcə ədəbiləşdi və əbədiləşdi, paylandı, hamının malı oldu”.

S.Rüstəmxanlı deyir ki, bu gün də Nüsrətin sevgi şeirləri yüzlərlə vurğun ürək arasında körpü salır, eşq məktublarını bəzəyir. “Getmək istəyirsən”, “Bilsəm yalan deyirsən”, “Əllərin nə yaman soyuqdur, gülüm”, “İsti yağışlar yağır”, “Etiraf”, “İkimizin yerinə”, “Allahım, ayırma bizi” və başqa şeirləri təkcə Nüsrət Kəsəmənlinin deyil, ötən əsr sevgi lirikamızın ən gözəl örnəkləri sırasındadır... Nüsrətin bənzərsiz publisistikası vardı. Televiziyada unudulmaz verilişlər aparırdı. Sənədli filmimizin inkişafında xidmətləri danılmazdır. “Bakı” qəzetində işlədiyi illərdə balaca xəbər köşələrini sözünün gücüylə necə genişləndirdiyini, xırda olayları obrazlı və şairanə dillə necə ətə-qana doldurduğunu yaxşı xatırlayıram. Onun gözəl insan və böyük istedad sahibi olması, iri bədənində kövrək uşaq ürəyi gəzdirməsi barədə çox yazmaq olar...”

## BÜTÜN GƏNCLƏRİN SEVİMLİSİ

“Nüsrətlə tanışlığım hələ biz tələbə olmamışdan -1965-ci ilin sonlarından başlayıb”, - deyə tənqidçi Vaqif Yusifli xatırlayır: “Yuxarı sinif şagirdlərinin respublika toplanışında bir neçə şagirdlə Masallı rayonunu təmsil edirdim. Səhərlər digər rayonlardan gələn uşaqlarla birgə Bakını gəzdirirdilər. Avtobusda olanda hamımızdan fərqlənən iri cüssəli oğlanı görürdüm. Hamı onun başına toplaşırdı. O da şeir deyirdi. Mən də ona yaxınlaşdım. O zaman şeir yazırdım. Şeiri ona göstərdim, əl gəzdirdi. Sonra bizim dostluğumuz başladı”. V.Yusifli deyir ki, 1967-ci ildə hər ikisi universitetin filologiya fakültəsinə daxil olublar: “Nüsrət 2-3 il oxuyandan sonra qiyabiyə keçdi. Onu nənəsi saxlayırdı, dolana bilmirdi, ailəsində problemlər vardı. Dostluğumuz sonra da davam etdi. Mən onun yaradıcılığından bir neçə məqalə yazmışam. Bir kitabını da mənə bağışlayıb və “Qədim dostum Vaqifə” yazıb”. V.Yusifli xatırlayır ki, Nüsrət Kəsəmənli zamanında bütün tələbələrin, gənclərin sevimlisi olub: “Nüsrət gözəl şair idi. Bütün cavanlar - sevən, sevilən oğlanlar, qızlar onun şeirlərini oxuyurdular. Onun sevgi şeirləri çox məşhur idi. Oğlanlar-qızlar görüşə gedəndə Nüsrətin şeirlərini aparırdılar. Nüsrətin bir neçə şeirlər kitabı çapdan çıxıb. Heyf ki, ağır xəstəliyə tutuldu. Nüsrətin ölümü məni çox sarsıtdı...”

## SƏMİMİYYƏTİN DAŞIYICISI

“Nüsrət Kəsəmənli mənim yaddaşımda dərin iz buraxmış insan və şairdir”, - deyə ədəbiyyatşünas alim, professor Rüstəm Kamal xatırlayır: “Nüsrət 20-ci əsr Azərbaycan poeziyasında çox nadir bir dəyərin - səmimiyyətin daşıyıcısı idi. Onun sevgi şeirləri səmimi gerçəkliyi ilə oxucuların diqqətini çəkdi. Ölümündən sonra da Nüsrətin şeirlərini oxuyurlar. Qələm adamı gah sevgidən, gah ölümdən yazar. Nüsrət bunların ikisindən də yazıb. Nüsrətə “sevgi şairi” deyirlər. Bu, böyük statusdur. Çünki Azərbaycan ədəbiyyatında cəmi bir neçə nəfəri o statusla şərəfləndirmək olar. Nüsrət həmişə bir janrı - nağıl janrını təkrarlayırdı. Ona elə gəlirdi ki, həyat da, sevgi də, ölüm də bir nağıldır. O öz ömrünü də bir nağıl kimi yaşadı. Nüsrət nağıl qəhrəmanı idi. O, öz yaşıdları içərisində bəlkə də yeganə şair idi ki, özü haqqında mif, rəvayət yarada bildi. Nüsrətin yaşı 60-ı ötdü, amma gənclərin gözündə gənc kimi qaldı. Elə bir nəsil yoxdur ki, onun adı ilə obrazını eyniləşdirməsin. Bu, nadir xoşbəxtlikdir”.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
30 DEKABR BAZAR ERTƏSİ 2024



# 2024-CÜ İLİN İDMAN MƏNZƏRƏSİ

**Ümumi icmalı 2024-cü ilin Azərbaycan idmanı üçün olduqca məhsuldar və uğurlu olduğunu deməyə əsas verir. Qarşıdan daha məsuliyyətli il gəlir. 2025-ci ildə MDB Oyunlarına Azərbaycan - Gəncə ev sahibliyi edəcək.**

İdmanın dövlət siyasəti olduğu Azərbaycanda 2024-cü il də bu baxımdan hərəkətliliyi ilə diqqət çəkdi. İdmançılarımız bir sıra beynəlxalq yarışlarda ölkəmizi təmsil etdilər. Həmçinin Azərbaycan bir çox böyük turnirlərin ev sahibi oldu. Nəticələrə baxsaq, idmansevərlərimizin qürurlandığı məqamlar da oldu, təəssüf keçirdiyi anlar da. 2024-cü ilin idman mənzərəsinə nəzər yetirməyin vaxtıdır.

**OLİMPİYA OYUNLARINDA ƏN YAXŞI NƏTİCƏ**

Bir ildə Olimpiya oyunları keçirilirsə, həmin il üçün digər bütün idman yarışlarının əhəmiyyəti ikinci plana düşür. Şübhəsiz, Paris-2024 Olimpiadası da ilin ən böyük və vacib idman hadisəsi idi.

Fransa paytaxtında 15 idman növü üzrə 48 idmançı ilə təmsil olunan Azərbaycan millisinin çıxışı uğurlu alındı. Komandamızın ümumi qazancı yeddi medal oldu. Onlardan da ikisi qızıl, ikisi gümüş, üçü bürünc əyarlı idi. Cüdoçulardan Hidayət Heydərov və Zelim Kotsoyev fəxri kürsünün ən yüksək pilləsinə yüksəlməklə Parisdə şanlı Azərbaycan bayrağını dalğalandırdılar, Dövlət Himninin səsləndirilməsinə nail oldular. Taekvondoçu Qaşım Maqomedovla boksçu Alfonso Dominqes yalnız finalda uduzmaqla gümüş medal əldə etdilər. Üç bürünc medal isə pəhləvanlarımızdan gəldi. Yunan-Roma güləşçisi Həsrət Cəfərov, sərbəst güləşçilər Maqomedxan Maqomedov və Giorgi Meşvildişvili fəxri kürsünün üçüncü pilləsinə yüksəldilər.

Azərbaycan bu nəticə ilə Olimpiadada iştirak edən 206 ölkə arasında 30-cu oldu. Bu isə səkkizinci dəfə qatıldığımız olimpiadalar tarixində ən yaxşı göstəricidir. Əlavə olaraq, ilk dəfə iki cüdoçu eyni olimpiadada fəxri kürsünün ən yüksək pilləsində yer aldı. İlk dəfə bir boksçu ikinci olimpiya medalını əldə etdi. İlk dəfə Parisdə komanda idman növündə (3x3 basketbol) təmsil olunduq. Bundan başqa, bədii gimnastika üzrə qrup hərəkətləri yığmamız beşinci yeri tutmaqla olimpiadalar tarixində ən yaxşı göstəricisinə imza atdı. Ümumən, idmançılarımızın Parisdəki nəticələri pozitiv alındı. Azərbaycan Prezidenti İlham Əliyev də milli komandanın Olimpiadadakı çıxışına yüksək qiymət verdi. Onun imzaladığı sərəncamla yığma üzvləri və onların məşqçiləri təltif edildilər. Ölkə başçısı, həmçinin idmançılarla şəxsən görüşərək onlara təbriklərini çatdırdı.

**PARİSDƏ DAHA 11 MEDAL**

Olimpiadanın ardınca Parisdə Yay Paralimpiya Oyunları baş tutdu. Burada ölkəmiz dörd idman növündə 11 idmançı ilə təmsil olundu. Onlar Fransa paytaxtından doqquz medalla qayıtdılar. Medalların dördü qızıl, ikisi gümüş, üçü isə bürünc oldu. Komandamızın heyətində atletlər Səid Nəcəfzadə, Lamiyə Vəliyeva, Orxan Aslanov və taekvondoçu İmaməddin Xəlilov qalib adını qazandılar. Vəliyeva, həmçinin bir gümüş medal əldə etməyi də bacardı. O, 100 metr məsafəyə qaçışda 11.76 saniyə göstərici ilə yeni dünya rekordu müəyyənləşdirdi. Roman Saley bir gümüş və iki bürünc, Sabir İsmayılov, Vəli İsmayılov və İlham Zəkiyev isə bürünc medalla yadda qaldılar.







## AVROPAYA SƏS SALAN "QARABAĞ"

"Qarabağ" bu il də azarkeşləri avrokuboklardakı nəticələri ilə sevindirməyi bacardı. Növbəti dəfə Avropa Liqasının qrup mərhələsində mübarizə aparan "atlılar" H qrupunu 10 xalla ikinci pillədə başa vuraraq pley-offa yüksəldilər. Burada onlar Portuqaliyanın güclü "Braqa" klubu ilə qarşılaşdılar. Səfərdə 4:2 üstün parlaq qələbə əldə edən komandamız iki oyunun cəmində rəqibini 6:5 üstələyərək mərhələ adladı. Avropa Liqasının 1/8 finalı idmanın şahı hesab edilən futbolda Azərbaycan futbolu üçün ilk idi. Daha əvvəl də "Qarabağ" pley-off oynamağı bacarmışdı, lakin daha irəli gedə bilməmişdi. Komanda 1/8 finaldakı oyunu ilə isə bütün Avropanı heyran etməyi bacardı. Ötən mövsüm Almaniya Bundesliqasını məğlubiyyətsiz çempion bitirən, Avropa Liqasında sonradan finala yüksələcək Leverkuzen "Bayer"i ilə qarşılaşmalarda "Qarabağ" nəinki rəqibindən zəif deyildi, hətta əksər azarkeşlərin fikrincə, daha güclü oynayan tərəf idi. Həm Bakıda, həm səfərdə matçın gedişi zamanı iki qolluq üstünlük əldə edən Qurban Qurbanovun komandası yekunda bəxtsizliklə üzləşdi və ümumi hesabda 4:5 hesablı yenilgi ilə mübarizəni dayandırdı. Lakin komandanın bu oyunu sonra da uzun müddət Avropa mediasının diqqətində qaldı.

Bu mövsüm isə "Qarabağ" ilk dəfə liqa formatında keçirilən Avropa Liqasının əsas mərhələsində çıxış edir. Qarşıda daha iki oyunu olan komanda növbəti mərhələ şanslarını saxlayır.

## Ulduzlar Azərbaycan paytaxtında

Şübhəsiz, ilin ən böyük hadisəsi Bakıda keçirilən COP29 idi. COP29 dünya idmanını da yaşıla bürüməyi bacardı. Tədbir çərçivəsində futbol klublarının iqlim dəyişikliyi ilə mübarizə alyansı yaradıldı. Buraya Avropanın və dünyanın bir sıra böyük klubları qoşuldular. FIFA prezidenti Canni İnfantino, türkiyəli əfsanəvi məşqçi Fatih Terim, "Barselona" klubunun prezidenti Joan Laporta, əfsanəvi keçmiş futbolçu Ronaldinyo Bakının qonağı oldular. Azərbaycan BMT-nin qlobal iqlim sammitləri tarixində böyük idman qurumlarının diqqətini bu sahəyə bu səviyyədə yönəltməklə imzasını atmış oldu. İlin sonuna doğru isə azərbaycanlı futbolsevərləri sevindirən başqa bir böyük hadisə baş verdi. Bu dəfə "Qızıl top"un səkkizqat qalibi Lionel Messi və komanda yoldaşları - Luis Suares, Jordi Alba və Serxio Buskets paytaxtımızın qonağı oldu. Böyük fanat ordusu Messi və dostlarını canlı görmək imkanı qazandı.




Ümumi icmalı 2024-cü ilin Azərbaycan idmanı üçün olduqca məhsuldar və uğurlu olduğunu deməyə əsas verir. Qarşıdan daha məsuliyyətli il gəlir. 2025-ci ildə MDB Oyunlarına Azərbaycan - Gəncə ev sahibliyi edəcək. Əvvəllər bu səviyyədə idman tədbirlərinə məharətlə ev sahibliyi etmiş Azərbaycanın bunun da öhdəsindən uğurla gələcəyinə heç bir şübhə yoxdur.

**Foto:** Tapdiq Abdullayev - Global Photostock